www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 14 may 2015-ci il Cümə axşamı № 103 (6131) Qiymətі 40 qəpik

**Xəbər**

## Azərbaycanda oliqarx həbsləri - dəhşətin statistikası

yazısı səh.4-də

**Gündəm**

### Qubad İbadoğlunun ofisində axtarış aparıldı; sənədlər müsadirə edildi



Hazırda ABŞ-da olan iqtisadçı həbs təhlükəsi real olsa da, avqustda ölkəyə qayıdacağını dedi...

yazısı səh.6-da

### İqtidardan üçüncü görüş təklifi - müxalifət hələ düşünür

yazısı səh.3-də

### Milli Şuranın mitinq müəmması

yazısı səh.6-da

### Müsavat Bakı Şəhər İcra Hakimiyyətini məhkəməyə verdi

yazısı səh.2-də

### İran-Ermənistan dostluğunun tək səbəbi

yazısı səh.7-də

### Riqa sammiti - it hürən, yoxsa işıq gələn səmtə gedirik?

yazısı səh.9-da

### Dollara tələbat artır- xarici valyuta yenidən möhkəmlənə bilər

yazısı səh.13-də

### Qərblə Rusiya arasında "Krımsız" anlaşma?

yazısı səh.7-də

### Marşrut xətlərinin dəyişdirilməsi sərnişinlərə baha başa gəlir

yazısı səh.12-də

### 4 milyona yaxın vergi borcu olan sahibkarın əmlakı siyahıya alındı

yazısı səh.2-də

### Ev almaq istəyənlərə şad xəbər mənzillər ucuzlaşır

yazısı səh.15-də

### Epilyasiya insanı öldürə də bilər, əgər...

yazısı səh.15-də

### Bakıda qanlı qonşu davası; bir ölü

yazısı səh.14-də

## Cahangir Hacıyev də "göz altında!"

# DÖVLƏT BANKINI SOYANLARIN ARXASINDA KİMLƏR VAR - ŞOK FAKTLAR

Hakimiyyət "öz içində" təmizləmə aparmaqla ölkədə siyasi baxışlarına görə həbslərin aparılmadığına dair dəlil ortaya qoymuş oldu; "Beynəlxalq Bank işi" bir sıra vəzifəli məmurların gizlətdiyi biznesini, onlara bağlı şirkətləri və iş adamlarını ortaya çıxarıb




yazısı səh.5-də

# Bakı Kremlin hədəsini geri çevirdi

Prezident İlham Əliyev Avropa Birliyinin Riqa sammitinə qatılmaq qərarı verdi; Rusiyanın Azərbaycan və 5 dövlətə qarşı şantajı keçmədi; qərarın Nikolay Patruşevin Bakı səfərinin sonuncu günü açıqlanması təsadüfdürmü?

yazısı səh.8-də



*Mehman Əliyev:*

### "Hakimiyyət mühacirətdəki insanlarla əməkdaşlıq etməlidir"

yazısı səh.3-də



### Arif Hacılı bu gün ciddi açıqlamalar verəcək

yazısı səh.4-də



### Aydın Əliyev Gömrük Komitəsinin üç idarə rəisini işdən çıxartdı

yazısı səh.2-də

# 14 may 2015



**Müsavat Partiyasının başqanı Arif Hacılı partiya üzvü Aydın Qədimlini 65 illik yubileyi münasibətilə təbrik edib. Təbrikdə deyilir:**

**"Hörmətli Aydın bəy!**

**Sizi 65 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, Sizə uzun ömür, cansağlığı və işlərinizdə uğurlar arzulayıram.**

**Siz 1988-ci ildən Azərbaycan Xalq Hərəkatına qoşulmuş, ölkəmizin istiqlalı və ərazi bütövlüyü uğrunda mübarizə aparmısınız.**

**Sonralar isə Müsavat Partiyasına daxil olaraq bu mübarizəni Müsavat Partiyasının sıralarında aparmış, partiyanın güclənməsində, müsavatçılıq ideoyalarının təbliğində və yayılmasında böyük xidmətləriniz olmuşdur. Siz eyni zamanda üzvü olduğunuz Binəqədi təşkilatının güclənməsinə də hər zaman öz töhfənizi vermisiniz. Əminəm ki, övladlarınız hər zaman Sizin kimi əqidəli bir müsavatçının övladları olmaları ilə qürur duyacaq və iftixar hissi keçirəcəklər.**

**Hörmətli Aydın bəy!**

**Sizi bir daha 65 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, Sizə uzun ömür, cansağlığı, şəxsi həyatınızda xoşbəxtlik və apardığımız bu şərəfli mübarizədə uğurlar arzulayıram".**

# Aydın Əliyev Gömrük Komitəsinin üç idarə rəisini işdən çıxardı

**Dövlət Gömrük Komitəsində (DGK) yeni təyinatlar olub. Komitədən "APA-Economics"ə verilən məlumata görə, Astara Gömrük İdarəsinin rəisi Ədalət Hüseynəliyev, Xaçmaz Gömrük İdarəsinin rəisi Elçin Quliyev və Biləsuvar Gömrük İdarəsinin rəisi Sahib Axundov sərəncama götürülüblər.**



Xudafərin Gömrük İdarəsinin rəisi Sücəddin Hüseynov Astara Gömrük İdarəsinə rəis təyin edilib. Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisinin I müavini Azər Məmmədov Xaçmaz Gömrük İdarəsinin rəisi, Sumqayıt Baş Gömrük İdarəsinin rəisinin müavini İlqar Abdullayev isə Biləsuvar Gömrük İdarəsinin rəisi vəzifəsini icra edəcəklər.

**Komitədən o da bildirilib ki, bu adi prosedur qaydadır: "Bu, komitə daxilində adi yerdəyişmədir və mütəmadi olaraq baş verir".**



## Vyetnam prezidenti Azərbaycana rəsmi səfərə gəlib

**Vyetnam Sosialist Respublikasının prezidenti Çıonq Tan Şanq Azərbaycana rəsmi səfərə gəlib.**

APA-nın məlumatına görə, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Vyetnam prezidentini və xanımı May Thi Hanı hava limanında Azərbaycan baş nazirinin I müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşılayıblar. Ali qonaq aeroportda Vyetnamın Azərbaycanda fəaliyyət göstərən diasporunun üzvləri tərəfindən coşqu ilə qarşılanıb.

## Müsavat Bakı Şəhər İcra Hakimiyyətini məhkəməyə verib

**Müsavat Partiyası Bakı Şəhər İcra Hakimiyyətindən (BŞİH) məhkəməyə şikayət ərizəsi verib. Bu barədə açıqlamasında partiyanın Divan üzvü, vəkil Nemət Kərimli qeyd etdi ki, BŞİH Müsavatın aprelin 19-na təyin etdiyi yürüşə razılıq verilmədiyi üçün məhkəməyə müraciət ediblər: "1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməyə təqdim etdiyimiz ərizədə Bakı Şəhər İcra Hakimiyyətinin yürüşə icazə verməməsinin qanunvericiliyə zidd olduğu bildirilib. Məhkəmə BŞİH-in qanunsuzluğuna qiymət verməlidir".**

Xatırladaq ki, BŞİH Müsavat Partiyasının aprelin 19-na planlaşdırdığı yürüşün keçirilməsinə razılıq verməmişdi. İcra hakimiyyəti partiyaya aprelin 19-da saat 15.00-dan 17.00-dək Yasamal rayon İdman-Sağlamlıq Kompleksinin stadionunda (keçmiş "Məhsul") mitinq keçirmək təklif etmişdi. Müsavat rəhbərliyi isə bu təklifdən imtina etmişdi.

❑ ETİBAR

## Elmar Məmmədyarov Antalyada Nulandla görüşdü



**Xarici işlər naziri Elmar Məmmədyarov Türkiyənin Antalya şəhərində keçirilən NATO-nun Əfqanıstanda Qətiyyətli dəstək missiyasına töhfə verən dövlətlərin xarici işlər nazirlərinin iclası çərçivəsində bir sıra görüşlər keçirib.**

APA-nın Azərbaycan Xarici İşlər Nazirliyinin saytına istinadən xəbərinə görə, Elmar Məmmədyarov iclas çərçivəsində Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu, Belçikanın xarici işlər və Avropa işləri üzrə naziri Didier Reynders, Norveçin xarici işlər naziri Borge Brende, Bolqarıstanın xarici işlər naziri Daniel Mitov, Slovakia xarici işlər naziri Miroslav Lajcak və Xorvatiyanın baş nazirinin müavini və xarici işlər və Avropa məsələləri üzrə naziri Vesna Pusic ilə görüşərək, qarşılıqlı maraq doğuran məsələlər üzrə fikir mübadiləsi aparıb.

Həmçinin ABŞ tərəfinin xahişi ilə nazir Elmar Məmmədyarov ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Viktoria Nulandla görüşüb.

## Dəmir yolunda gediş haqqı dəyişə bilər

**"Azərbaycan Dəmir Yolları" QSC sərnişindaşıma üzrə bəzi tariflərin dəyişdirilməsi ilə bağlı Tarif Şurasına müraciət etməyi planlaşdırır". Bunu jurnalistlərə QSC-nin sədri Cavid Qurbanov deyib. («Trend»)**

Onun sözlərinə görə, "Azərbaycan Dəmir Yolları" yeni Bakı-Sumqayıt dəmir yolu xəttində VİP vaqonlarda sərnişindaşıma tariflərinin tənzimlənməsi funksiyalarını QSC-yə vermək təklifi ilə Tarif Şurasına müraciət edib. C.Qurbanov qeyd edib ki, məlum olduğu kimi, sosial qiymətlər mövcuddur, məsələn, dövlət tərəfindən tənzimlənən plaskart vaqonlarda gediş haqqı qiyməti: "VİP vaqonlarda gediş haqqını isə özümüz tənzimləməyi planlaşdırırıq".

**O əlavə edib ki, Bakı-Sumqayıt xəttində gediş haqqının məbləği bu istiqamətdən hər gün istifadə edən əhalinin cari xərclərinə əsaslanacaq:** "Apardığımız yoxlama nəticəsində müəyyən etdik ki, əhali Sumqayıtdan Bakının mərkəzinə gəlmək üçün orta hesabla 1 manat xərcləyir. Üstəlik, onlar 2 saat vaxt itirirlər, bir neçə dəfə nəqliyyat vasitəsini dəyişir və təyinat yerinə böyük narahatlıqla çatırlar".

C.Qurbanov bildirib ki, Bakı-Sumqayıt dəmir yolu xətti istismara verildikdən sonra əhali rahat şəraitdə paytaxta cəmi 40 dəqiqəyə çatacaq.

## Ombudsman siyasi məhbuslara baş çəkib

**Ombudsman Elmira Süleymanova mayın 13-də əvvəlcədən xəbərdarlıq etmədən Milli Təhlükəsizlik Nazirliyinin Müvəqqəti saxlama yeri və istintaq təcridxanasına baş çəkib. Başçəkmədə məqsəd saxlama şəraiti və rəftarın araşdırılması, saxlanılan şəxslərin hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsindən ibarət olub. Bu barədə Ombudsman Aparatının məlumatında deyilir. («Turan»)**



Xüsusən Süleymanova jurnalist Rauf Mirqədirov, hüquq müdafiəçisi Arif Yunus, ilahiyyatçı Elşən Mustafayev və başqaları ilə görüşüb.

Görüşlər zamanı onlar saxlanma şəraitindən və onlara qarşı davranışdan şikayət etməyiblər, keyfiyyətli qida və tibbi xidmətdən razılıqlarını bildiriblər.

«İstintaq təcridxanası rəhbərliyinə saxlama şəraitinin daha da təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilib», deyə ombusmanın mətbuat xidməti bildirir.

## 4 milyona yaxın vergi borcu olan sahibkarın əmlakı siyahıya alındı

**Bakı Vergilər Departamentinin Bəyannamələr və vergi borclarının alınması idarəsinin əməkdaşları tərəfindən Nərimanov rayonu, Dərnəgül şossesi 1222, ev 12 ünvanda yerləşən Ağayev Ağa Əliəşrəf oğluna məxsus topdansatış obyektində əmlakın siyahıya alınması tədbiri keçirilib.**



Nazirliyin Analitik-informasiya şöbəsindən "APA-Economics"ə verilən məlumata görə, vergi orqanları tərəfindən ötən ilin oktyabr ayında ödəyicinin fəaliyyəti araşdırılarkən onun 3 mln. 871 min 101,14 manat vergi borcunun yarandığı müəyyən edilib, borcun ödənilməsi barədə ona bildiriş göndərilsə də, borc qanunvericilikdə nəzərdə tutulan müddətdə ödənilmədiyindən, Vergi Məcəlləsinin 89-cu maddəsinə əsasən, vergi borcunun ödənilməsini təmin etmək məqsədilə 2015-ci ilin may ayının 4-də əmlakın siyahıya alınması haqqında qərar çıxarılıb.

Vergi orqanı əməkdaşları tərəfindən topdansatış obyektində olan 233 min 680 manat məbləğində müxtəlif növ divar kağızları müvafiq qaydada siyahıya alınıb.

## Süleyman Dəmirəlin vəziyyəti ağırlaşıb

**Türkiyənin 9-cu prezidenti Süleyman Dəmirəlin vəziyyəti ağırlaşıb.**

APA-nın "Sözcü" qəzetinin saytına istinadən verdiyi xəbərə görə, dünən günorta saatlarında S. Dəmirəlin Ankaradakı evinə 2 ambulans gəlib. İlkin tibbi yardımdan sonra sabiq dövlət başçısı Başkənd Universitetinin xəstəxanasına aparılıb.

## "A.M.A.Y. Abdulla" sayt açıb

**"A.M.A.Y." Ticarət Mərkəzinin rəhbəri, "A.M.A.Y. Abdulla" kimi tanınan iş adamı Abdulla Abdullayev sayt açıb. Abdullaabdullayev.org adlanan saytda hələlik əsasən iş adamının məhkəmələri haqda məlumatlar yerləşdirilir. Onun fəaliyyəti haqda məlumatlar verilir.**

Yeri gəlmişkən, qeyd edək ki, mayın 14-də Bakı Ağır Cinayətlər Məhkəməsində "A.M.A.Y." Ticarət Mərkəzinin rəhbəri, iş adamı Abdulla Abdullayev və digərlərinin cinayət işi üzrə məhkəmə prosesi davam etdiriləcək. Sonuncu prosesdə hakim Əfqan Hacıyev iş üzrə zərərçəkmiş şəxslərin məhkəməyə gətirilməsi barədə qərarın hələlik təmin edilmədiyini bildirib. Əlavə edib ki, bu səbəbdən növbəti prosesdə şahidlərin dindirilməsinə başlanacaq. A.Abdullayev ötən il aprelin 4-də həbs olunub. Onunla bağlı İqtisadiyyat və Sənaye Nazirliyi yanında Sahibkarlığa Kömək Milli Fondundan daxil olmuş material Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılaraq, Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb. Abdulla Abdullayev, Novruzov Elşən Firudin oğlu, Rzayev Heydər Nizami oğlu, Məmmədxanlı Mehman Əbülfəz oğlu, Qurbanov Vidadi Qəmbər oğlu və İlyasova Nadejda İvanovna təqsirləndirilən şəxs qismində cəlb edilib. Abdulla Abdullayev Cinayət Məcəlləsinin dələduzluq, mənimsəmə və ya israf etmə, yalançı sahibkarlıq və vəzifə səlahiyyətlərindən sui-istifadə əməlləri ilə təqsirləndirilir.

❑ E.MƏMMƏDƏLİYEV

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

## "Oğlumun adı Ziya Məmmədovun şərəfinə deyil"

**Tanınmış şoumen Murad Dadaşovun nazir Ziya Məmmədovun şərəfinə kiçik oğluna Ziya adını qoyması xəbəri cəmiyyətdə maraqla qarşılanıb. Niyə məhz nazirin şərəfinə oğluna ad verməsi xeyli suallar doğurub.**

Bununla əlaqədar şoumen Murad Dadaşovla əlaqə saxladıq. O, "Yeni Müsavat"a verdiyi açıqlamada məlumatı təkzib edib: "Bu məlumat tamamilə yanlışdır. Mətbuatda bəzi saytlar sadəcə reytinq xətrinə o cür başlıqla məlumatlar yayıb. Doğrudur, oğlumun adı Ziyadır, lakin bu nazir Ziya Məmmədovun şərəfinə deyil. Nazirin adını daşıyan öz nəvəsi var və həmin nəvəsi Anar Məmmədovun oğludur. Anar Məmmədovun mənim oğlum Ziyanın kirvəsi olması məlumatı isə həqiqətdir. O, mənim çox yaxın dostum, əzizimdir".

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT
N 103 (6131) 14 may 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# İqtidardan üçüncü görüş təklifi - müxalifət hələ düşünür

## Görüşlə bağlı mövqeyini dəqiqləşdirənlər də var, fikirləşənlər də; Pənah Hüseyn: ""Azadlıq-2015"də əksəriyyət iştirak tərəfdarı kimi çıxış etdi""

**Mayın 15-də keçiriləcək növbəti iqtidar-müxalifət görüşü ilə bağlı müxalif düşərgə müzakirə aparmaqdadır. Görüş üçün bir çox partiyalara təklif gəlib. Ancaq partiyalar təklifi hələ dəyərləndirməyiblər. Həmçinin müzakirə olunacaq məsələlər də mətbuata açıqlanmır.**

Qeyd edək ki, görüş Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun rəhbərliyi ilə mayın 15-də saat 10:00-da baş tutacaq. İqtidar-müxalifət görüşünə bu dəfə Müsavat Partiyası da dəvət alıb. **Arif Hacılı** müxbirimizə bu xüsusda deyib: "Mayın 12-də mənə Prezident Administrasiyasından zəng gəldi və rəhbər şəxslər bildirdilər ki, iqtidar-müxalifət görüşü baş tutacaq. Məni də həmin görüşdə iştirak üçün dəvət etdilər. Dəvətə görə təşəkkürümü bildirərək məsələnin partiya strukturlarında müzakirə edildikdən sonra qərar veriləcəyini bildirdim. Müsavat Partiyasının məsələ ilə bağlı mövqeyi açıqlanacaq".

**KXCP sədri Mirmahmud Mirəlioğlu isə məsələ ilə bağlı bildirib ki, "Azadlıq-2015" seçki blokuna daxil olan partiyalar mayın 13-də bu məsələni müzakirə ediblər:** "Növbəti görüşdə iştirak etmək siyasi partiyaların öhdəsinə buraxıldı. Siyasi partiyaların hər biri özü iştirak edib-etməmək barədə qərar qəbul edəcək". O, KXCP-nin mövqeyinin də dəqiqləşmədiyini bildirdi.

**AXP sədri Pənah Hüseyn isə qeyd edib ki, "Azadlıq-2015" seçki blokuna daxil olan partiyalar bir müddət əvvəl qərara almışdılar ki, görüşdə seçki islahatı və siyasi məhbus məsələsi müzakirə olunsun:** "Mayın 13-də Sədrlər Şurasında görüşdə iştirak edib-etməmək məsələsi partiyaların öz öhdəsinə buraxılıb. Əksəriyyət iştirak tərəfdarı kimi çıxış etdi".



**Qeyd edək ki, "Azadlıq-2015"in Sədrlər Şurasının toplantısında bəyanat da qəbul olunub. Bəyanatda siyasi məhbusların məsələsi qaldırılıb.** ""Azadlıq-2015" hesab edir ki, siyasi məhbus kimi tanınan şəxslərin azad edilməsi I Avropa Oyunları ətrafında əsl olimpiya ruhunun formalaşmasına ciddi töhfə olardı. Bununla əlaqədar "Azadlıq-2015" prezident İlham Əliyevə bir daha müraciət edərək xahiş edir ki, öz konstitusiya səlahiyyətlərindən istifadə edərək siyasi məhbus problemi kimi tanınan məsələnin birdəfəlik həlli üçün köklü addımlar atsın", - deyə orada bildirilir.

**Bəyanatda o da vurğulanır ki, "Azadlıq-2015" seçki blokuna daxil olan partiyalar I Avropa Oyunlarını boykot çağırışlarına tərəfdar deyil:** "Belə çağırışları təqdir etmir və ümid edir ki, bu cür çağırışlar, ümumiyyətlə, olmayacaq. Eyni zamanda hesab edilir ki, Azərbaycanda ayrı-ayrı fərdlərin və təşkilatların bu oyunlara fərqli, tənqidi, hətta əksəriyyətin rəyi ilə üst-üstə düşməyən boykot çağırışlarının belə onlara qarşı təqib və təhdid kampaniyasına səbəb olması yolverilməzdir".

***

İqtidar-müxalifət görüşü ilə bağlı AXCP-yə də dəvət gəlib. AXCP-dən verilən məlumata görə, Prezident Administrasiyasından zəng edərək partiya lideri Əli Kərimlini həmin tədbirə dəvət ediblər. AXCP-dən azadlıq.info-ya bildiriblər ki, partiyanın tədbirdə iştirak edib-etməyəcəyinə rəhbərlikdə aparılacaq müzakirədən sonra qərar veriləcək.

Həmçinin əvvəlki iki görüşə çağırılmayan Ədalət Partiyasına da dəvət gəlib. İqtidar və müxalifət partiyalarının növbəti görüşündə həmin partiya da iştirak edəcək. Ədalət Partiyasının sədri, Milli Məclisin deputatı İlyas İsmayılov strateq.az-a açıqlamasında məlumatı təsdiqləyib. Onun sözlərinə görə, Ədalət Partiyası görüşə qatılacaq və müzakirələrdə iştirak edəcək.

**"Ümid Partiyasının sədri İqbal Ağazadə** də məsələ ilə bağlı bildirib ki, görüşdə iştirak edəcək. "Müzakirə olunacaq məsələlər yerində müəyyənləşdiriləcək. Bizim qaldıracağımız prioritet məsələlər siyasi həbslərdir, həbsdə olan insanların məsələsidir", - deyə Ağazadə musavat.com-a bildirib.

**Xatırladaq ki, iqtidarla müxalifətin sonuncu görüşü fevralın 12-də keçirilib.**

❑ Röya RƏFİYEVA

# Mühacirlərə düşmən münasibətin səbəbi...

## Mehman Əliyev: "Hakimiyyət bu insanlarla əməkdaşlıq etməlidir"

**Xaricdə yaşayan azərbaycanlı mühacirlərimizin həyatından, yaşantısından hazırladığımız silsilə reportajlar geniş oxucu kütləsi toplayır. Ölkə daxilində və xaricində olan oxucularımızdan müxtəlif reaksiyalar, baxışlar gəlir, təhlillər aparılır.**

Amma bu məqamda diqqət çəkən əsas məsələ mühacirlərə Azərbaycan hakimiyyətinin münasibətidir. Bu barədə müsahiblərimiz də dəfələrlə vurğulayıblar. İqtidar ölkədən xaricdə yaşayan vətəndaşlarına düşmən münasibəti göstərir, onlara qarşı qıcıqlı münasibəti var deyə... Halbuki ortada daha sağlam paralellər, nümunələr var. Belə ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan dəfələrlə xarici ölkədə olanda oradakı mühacirlərlə, Anadolu türkcəsi ilə desək, "qürbətçi"lərlə görüşüb, onları özününkü kimi qəbul etdiyini bildirib, bu mesajı verib. Bəs Azərbaycan hakimiyyəti hansı səbəbdən bunu etmir? Mühacirlərlə aradakı soyuqluğu azaltmağın bir yolu varmı?



Mehman Əliyev

**"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev hesab edir ki, bu məsələdə ayrı-seçkilik var. Onun sözlərinə görə, hakimiyyət daxildə insanlara qarşı necədirsə, xaricdə də elədir:** "Hakimiyyət hər yerdə müxalifəti özünə düşmən kimi görür. Daxildə də münasibət yoxdur. Siyasi partiyalarla, müxalif media ilə heç bir kontakt qurmur. Mühacirlərə də təxminən eyni münasibəti göstərir. Yəni sən xaricdə bizdən narazısansa, səni tanımırıq, sənlə işləmirik".

**M.Əliyev düşünür ki, dövlət bundan kənarda olmalıdır. Çünki dövləti də tənqid etmək olar. Bu, insanların normal, demokratik hüquqlarından biridir:** "Hakimiyyət, dövlət bu insanlarla əməkdaşlıq etməlidir. Bu məsələlər ətrafında danışmaq lazımdır. Qeyri-normal, qeyri-sağlam münasibət göstərirlər insanlara. Halbuki xaricdə yaşayan azərbaycanlılarla siyasəti dövlət özü müəyyənləşdirir. Bununla bağlı xüsusi komitəsi, siyasəti var. Dövlət daxildə də, xaricdə də eyni məfhumu daşıyır. İlham Əliyev də, Heydər Əliyev də dəfələrlə bəyan edib ki, xaricdə yaşayan azərbaycanlılar bizim vətəndaşlarımızdır. Ona görə də dövlət hamıya eyni cür yanaşmalı, opponentlik edənə də normal münasibət göstərməlidir".

❑ Sevinc TELMANQIZI

# "Patruşevin səfəri Kremlin Azərbaycanı öz yanına çəkmək cəhdi idi"

## Ərəstun Oruclu: "Rusiyadan Bakıya gələn nümayəndə heyətinə bu şəxsin rəhbərlik etməsinin özü də şantaj elementləri olan mesajdır"

**Xəbər verdiyimiz kimi, Rusiya Təhlükəsizlik Şurasının katibi, general Nikolay Patruşev Bakıya səfər edərək bir sıra rəsmi görüşlər keçirib. FTX-nin keçmiş direktoru həmçinin Azərbaycanın milli təhlükəsizlik naziri Eldar Mahmudovla görüşərək ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə edib. Görüşdə Bakı I Avropa Oyunları çərçivəsində kütləvi tədbirlər zamanı təhlükəsizlik məsələlərinin də nəzərdən keçirildiyi bildirilir.**



Nikolay Patruşev

Rusiya rəsmisi siyasi danışıqlar da aparıb, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevlə görüşdə ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə edib. Mehdiyevlə Patruşev milli və regional təhlükəsizliyin təmin edilməsi məqsədilə iki ölkənin Təhlükəsizlik Şurası aparatlarının qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsinin vacibliyi məsələsini nəzərdən keçiriblər. Görüşdə Xəzəryanı ölkələrin əməkdaşlığının gücləndirilməsi məsələsi də müzakirə olunub. Ancaq bir sıra müşahidəçilərə görə, bu səfər zamanı daha ciddi və konkret mövzular diqqətdə olub. Və rusiyalı general Bakıya ciddi mesajlar gətirib.

**Politoloq Ərəstun Oruclunun** fikrincə, Patruşevin səfərini Rusiyanın Azərbaycanı öz yanına çəkmək cəhdi kimi xarakterizə etmək olar: "Patruşevin səfəri ilə bağlı mediada demək olar ki, heç nə yoxdur. Ona görə də bu səfərlə bağlı yalnız mülahizələr əsasında danışmağa əlac qalır. Rəsmi məlumatlardan belə anlaşılır ki, Rusiya Azərbaycan tərəfini öz yanına çəkməyə çalışır - ilk növbədə də Xəzərin statusu məsələsində. Bilirik ki, burda çox ciddi fikir ayrılıqları yaranıb. Xüsusən də İran-Qərb münasibətlərinin mülayimləşməsi kontekstində. Ehtimal olunur ki, İran Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında iştirak edəcək. İran rəsmiləri özləri də bunu təsdiqləyən açıqlamalar verib. Görünür, indi Rusiya hesab edir ki, Qərb-İran yaxınlaşmasında Azərbaycanın rolunun azalması Bakının Rusiyanın tərəfinə keçməsinə səbəb ola bilər. Eyni zamanda burda bir təzyiq amili də var. Məsələn, son dövrlərdə açıq görünməsə də, Rusiya tərəfindən Azərbaycana müəyyən siqnallar, mesajlar çatdırılır. Dağlıq Qarabağda keçirilən saxta seçkilərə Rusiyadan nümayəndələrin göndərilməsi və son zamanlar qeydə alınan başqa hərəkətlər buna işarə sayıla bilər. Və nəhayət, Rusiyadan Bakıya gələn nümayəndə heyətinə Patruşevin rəhbərlik etməsi özü müəyyən mənada şantaj elementləri olan mesajdır. Nümayəndə heyətinə Rusiya Prezident Administrasiyasının rəhbəri və ya xarici işlər naziri rəhbərlik etsəydi, bunu hardasa anlamaq olardı ki, bir tərəfdaşlıq axtarışıdır".

**Ekspertin qənaətincə, səfərin məqsədlərindən biri də Azərbaycanın daxilindəki vəziyyətlə tanış olmaq, Azərbaycan hakimiyyətindəki Rusiyaya loyal münasibət bəsləyən çoxluğa müəyyən dəstək ifadə eləmək, onları bir növ bir araya gətirmək olub:** "Son zamanlar biz görürük ki, hakimiyyət daxilində Rusiyaya loyal qruplaşmanın fəallığı artır. Bu da təbiidir. Çünki dediyim kimi, Rusiyadan mesajlar gəlir. Və nəhayət, regional təhlükəsizlik məsələləri. Təbii ki, bu gün Azərbaycanın təhlükəsizlik və hərbi sahədə əməkdaşlıq məsələlərində Rusiyanın yanında olması Moskva üçün mühüm əhəmiyyət kəsb edir. 9 may qələbə paradında Azərbaycan müəyyən mesajlar verdi, həm də Azərbaycana müəyyən mesajlar oldu. Diqqət yetirdinizsə, Azərbaycanın hərbi birləşməsi paradda NATO silahı və hərbi formasında idi. Bu özü heç də kiçik olmayan mesaj idi. Rusiya üçün xüsusilə bu, çox həssas mesajdır. Təbii ki, bunun qarşılığında Rusiyadan cavabları gözləməliyik. Patruşevin Bakı səfəri daha əvvəldən planlaşdırılsa da, hər bir halda Bakıya mesajlarla gəlmişdi".

**Ə.Oruclunun fikrincə, hazırda Moskvanı ən çox narahat edən məsələlərdən biri də qarşıdan gələn Riqa sammitidir. Bu sammitə Moskvanın həssas yanaşdığını xatırladan ekspertin qənaətinə görə, Patruşevin Bakıda görüşlərində əsas müzakirə mövzularından biri Riqa sammiti olub:** "Bildiyiniz kimi, Qərb də Riqa sammitində Azərbaycanın ciddi bir sazişə imza atmasını istəyir. Eyni zamanda Moskva Riqa sammitini Rusiyaya qarşı bir tədbir kimi dəyərləndirir. Ona görə də indi ziddiyyətli vəziyyət yaranıb. Düşünürəm ki, bu səfərin başlıca məqsədi Azərbaycanın xarici siyasət kursuna təsir etmək cəhdi idi".

❑ KƏNAN

YENİ MÜSAVAT
N 103 (6131) 14 may 2015

# Azərbaycanda oliqarx həbsləri - dəhşətin statistikası

## Tutulan iri iş adamlarının siyahısı hər gün çoxalır; oliqarxlar həbsdən canlarını qurtarmaq üçün müxalifətə üz tuta bilərlərmi...

**Azərbaycanda oliqarxların həbslərinə başlanıb. Tutulma, saxlanılma xəbərləri bir-birini əvəzləməkdədir. Arestantlar hakimiyyətə yaxınlıqları ilə tanınan iri çaplı iş adamlarıdır.**

### “Hacı İbrahim istintaqa da özü gedib”

**Mayın 13-də xəbər yayıldı ki, “Avesta” holdinqinin sahibi Hacı İbrahim Nehrəmli hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb. Lakin musavat.com-un əməkdaşı “Avesta” şirkəti ilə əlaqə saxlayaraq məlumatı dəqiqləşdirib. Şirkət yetkililərindən biri bildirib ki, Hacı İbrahim Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə (BMCMİ) çağırılıb və hazırda da oradadır:** “Hacı İbrahimi Beynəlxalq Bankla bağlı gedən istintaqa görə ifadə almağa dəvət ediblər. Onun istintaqa cəlb edilməsinin ”Xəzər Adaları" layihəsi ilə heç bir əlaqəsi yoxdur. İstintaqa da özü gedib. Hazırda oradadır. Onun həbs ehtimalı yoxdur. Saat 18 radələrində BMCMİ-dən çıxması gözlənilir".

### Piriyevin vəkili danışdı - “ittihamlarla razı deyil”

“Beynəlxalq Bank işi”nə görə 70-ə yaxın iş adamının istintaqa çağırıldığı bildirilir. Onların sırasında “PNN Group” şirkətinin təsisçisi və sahibi Nizami Piriyev də var. Məhkəmə onun barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçib. Virtualaz.org saytına açıqlamasında oliqarxın vəkili Muxtar Mustafayev deyib ki, Nizami Piriyev hazırda DİN-in Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsində saxlanılır. Vəkilin sözlərinə görə, N.Piriyevin səhhəti yaxşıdır, o, saxlanma şəraitindən şikayət etmir. Bununla belə, M.Mustafayev bildirib ki, N.Piriyev ona qarşı irəli sürülən ittihamlarla razı deyil. Oliqarx deyib ki, o, bankdan götürdüyü kreditlərin hamısını metanol zavoduna sərmayə kimi yatırıb. N.Piriyev həmin zavodun indiki bazar qiymətinin 800 milyon dollardan artıq olduğunu da sözlərinə əlavə edib.

Muxtar Mustafayevin sözlərinə görə, oliqarxa qarşı Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq - külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə cinayət işi açılıb. Barəsində məhkəmə qərarı ilə 3 ay 24 gün müddətinə həbs-qətimkan tədbiri seçilib. N.Piriyev bu müddət ərzində BMCMİ-nin təcridxanasında saxlanılacaq.

Həbsindən sonra Nizami Piriyevə məxsus obyektlər bağlanmağa başlayıb. Aznews.az xəbər verir ki, neft maqnatının bir müddət əvvəl açdığı "Port Baku Mall"da yerləşən dünyaca tanınmış WH Smith book-cafe dünəndən etibarən fəaliyyətini dayandırıb.

Yayılan məlumatlara görə, “PNN Group” şirkətini Nizami Piriyevlə oğlu Nəsib Piriyev idarə ediblər. Şirkətin adı da ata və oğlunun soyadlarının və adlarının baş hərflərindən formalaşdırılıb. Hər ikisinin də ad və soyad baş hərfləri birləşdirildikdə “Piriyev Nizami Nəsib” əmələ gəlir - yəni PNN. Bundan əvvəl nəqliyyat naziri Ziya Məmmədovun ailə holdinqinin adı da oxşar üsulla formalaşdırılmışdı. "ZQAN holdinq"in adı Ziya, Qətibə, Anar, Nigar sözlərinin baş hərflərindən istifadə olunaraq - ZQAN kimi seçilmişdi. Bu məsələ ictimailəşəndən və qəzet səhifələrinə çıxandan sonra nəqliyyat naziri “ZQAN” adından “Garant Holding”in xeyrinə imtina etdi.


İbrahim Nehrəmli


Nizami Piriyev


Rəşad Məmmədov

### “Baş bayraqdar” Rəşad Məmmədovun ətrafını da tuturlar

“Beynəlxalq Bank işi”nin “udduğu” iş adamları içində “Azİmport” şirkətinin sahibi Rəşad Məmmədov və onun şirkətdəki şəriki Azər Əsgərov da var. “Azİmport”dakı mənbələrdən virtualaz.org saytına verilən xəbərə görə, onların mayın 13-də şirkətin ofisində saxlayıblar. “Azİmport” şirkətinin sahiblərindən biri olan Azər Əsgərovun yaxın qohumları və şirkətin mühasibi Niyaz Orucov saxlanılıb. Hüquq-mühafizə orqanlarındakı mənbələrdən virtualaz.org saytına verilən xəbərə görə, şirkətin bütün əmlakı və mülkiyyəti məhz bu adamların adına sənədləşdirilibmiş.

### Növbə deputata da çatdı...

“Yeni Müsavat”a daxil olan xəbərə görə, istintaqa cəlb edilənlər sırasında R.Məmmədovla şərikli biznes münasibətlərində olan deputat Əsabil Qasımov da var. Faktiki deputata məxsus olan, lakin oğlu tərəfindən idarə olunan “Karat Holdinq"lə R.Məmmədovun sahib olduğu “Azimport”un şərikli layihələri var. Bu layihələr çərçivəsində Bakının ən müxtəlif nöqtələrində çoxmərtəbəli binalar inşa olunub. Binaların tikintisində əsasən Beynəlxalq Bankdan ayrılan kreditlər hesabına reallaşıb. Belə bir bina Axundov bağının yaxınlığında inşa olunub. Xəbərlərə görə, artıq həmin binada tikinti işləri dayandırılıb.

### Keçmiş millət vəkilini də “Globus Plaza”dan aparıblar

“Beynəlxalq Bank işi”nə görə istintaqa cəlb edilənlərdən biri də keçmiş millət vəkili, “Globus Plaza”nın sahibi Dünyamin Xəlilovdur. Qafqazinfo.az-ın məlumatına görə, bir neçə həftədir ki, “Globus Plaza”da ciddi yoxlamalar həyata keçirilir və bunun nəticəsi olaraq mərkəzin sahibi həbs edilib. İlkin informasiyalara görə, D.Xəlilov Beynəlxalq Bankdakı yeyintilərdə iştirakçılardan biridir. O, “Globus Plaza”nın mühafizəçiləri, xadimələri də daxil olmaqla, bir qrup işçinin adına bankdan 3 milyondan artıq vəsait götürməkdə ittiham olunur. İşçilər arasında aparılan yoxlamalardan sonra məlum olub ki, onların özlərinin belə bu kreditlərdən xəbərləri yoxdur. Maraqlıdır ki, Beynəlxalq Bankın bir filialı da “Globus Plaza”nın 3-cü mərtəbəsində yerləşib. D.Xəlilovun həbsindən sonra bankın fəaliyyəti dayandırılaraq oradan köçürülüb.

D.Xəlilov APA-ya açıqlamasında bu günlər ərzində saxlanılması, istintaq altında olub-olmaması məsələsinə toxunmadan hazırda xəstə olduğunu və müalicə aldığını bildirib.

Bir-birinin ardınca reallaşan həbslərin fonunda hakimiyyətə yaxın iş adamlarının kütləvi şəkildə müxalifətə dəstək verə biləcəkləri də müzakirə olunur.

**Bəs ekspertlər nə düşünür? Tutulan oliqarxlar müxalifətə stavka edə bilərmi? İqtisadçı ekspert Qadir İbrahimli deyir ki, tutulan iş adamları azad sahibkarlıqla məşğul olmayıblar, daha çox dövlət sifarişlərinin icrasını həyata keçiriblər:** “Onlar hakimiyyətin qeyri-rəsmi biznes strukturlarını təmsil edirlər. Bu günlər ərzində saxlanılanlar Beynəlxalq Bankın keçmiş prezidenti Cahangir Hacıyevin setində olan iş adamlarıdır. Onlar Beynəlxalq Bankdan 100 milyonlarla güzəştli kredit alıb və hətta mənimsəyiblər. Nəticədə Azərbaycanda bank aktivlərinin 70 faizinə malik olan Beynəlxalq Bankın maliyyə durumu kəskin pisləşib. İş adamlarının saxlanılmasının motivi göstərilməsə də, belə məlumatlar var ki, onlar dövlət sifarişlərinə ayrılan kreditləri mənimsəyiblər”.

**İqtisadçı ekspert deyir ki, bu gün Azərbaycan bankları 200-300 manat borcu olan müştərilərini məhkəməyə verir. Belə bir vəziyyətdə banka bir neçə milyon dollar borcu olan iş adamının həbsi normal qarşılanmalıdır:** “Buna qədər bank sistemində maliyyə intizamsızlığı hökm sürürdü. İndi isə hökumət neft gəlirlərinin azalması fonunda bank sektorundakı vəziyyətin hansı fəsadlar yaradacağını hesablayır və müəyyən qabaqlayıcı tədbirlərə baş vurur. Saxlanılan iş adamları müxalifətə stavka edə bilməzlər. Saxlanılanlar, qeyd etdiyim kimi, azad sahibkar deyillər, hakimiyyətə bağlı iş adamlarıdır. İndi həmin adamlar nəinki müxalifətə stavka etmək, maddi dəstək vermək haqda düşünürlər, daha çox özlərini həbsdən qurtarmaq üçün yollar axtarırlar. Müstəqil şəkildə fəaliyyət göstərən iş adamları demək olar ki, yox səviyyəsindədir. Hər bir iş adamı bu və ya digər şəkildə hakimiyyətdən asılı durumdadır. Hakimiyyətlə ilişkisi olmayan və belə ilişkilərə getmək istəməyən sahibkarların bir çoxu məcburiyyət qarşısında ölkədən gedib. Zülfüqarlı qardaşları bu zümrəyə aid olan ən parlaq nümunədir. Ölkədə qalan xırda sahibkarlıqla məşğul olanların isə qazandıqları özlərinin güzəranının təmininə zorla yetir. Azərbaycanda böyük biznes adamları isə hakimiyyətlə əlaqələri olanlardır. Bu gün elə bir vəziyyət yaranıb ki, ölkənin gəlirləri kəskin azalır və hökumət mövcud vəsaitlər üzərində nəzarəti gücləndirir ki, bank sistemi çökməsin. İndiki situasiyada saxlanılan sahibkarlar müxalifətə nəinki yaxın gəlməyəcək, hətta adlarının yanaşı çəkilməsinə də razı olmayacaqlar.

Onlar həbsdən yaxa qurtara bilməyəcəkləri təqdirdə məsələni siyasiləşdirməyə baş vura və müxalifətə üz tuta bilərlər. Bu isə o qədər də inandırıcı deyil".

❑ E.MƏMMƏDƏLİYEV

# Arif Hacılı bu gün ciddi açıqlamalar verəcək

## Müsavat başqanı medianı qərargaha toplayır

**Bu gün saat 14.00-da Müsavat Partiyasının başqanı Arif Hacılı mətbuat konfransı keçirəcək. Bu barədə partiyanın yaydığı rəsmi xəbərdə deyilir ki, mətbuat konfransı mərkəzi qərargahda olacaq. Rəsmi informasiyada Müsavat başqanının hansı məsələlərlə bağlı jurnalistləri başına toplayacağı qeyd olunmayıb. Ehtimallara görə, Arif Hacılı son bir həftədə Müsavat Partiyasının daxilində baş verənlər, müşahidə edilən proses, partiyadan xaric edilmələrə, istefalar və hakimiyyətlə siyasi partiyaların 15 maya planlaşdırılan görüşündə Müsavatın iştirak edib-etməməsi ilə bağlı mövqeyini media təmsilçiləri ilə bölüşəcək.**


Arif Hacılı

Qeyd edək ki, bir müddət idi sakitlik müşahidə edilən partiyada son bir həftədə yeni gərginlik yaranıb. Vurğun Əyyubun partiyadan xaric edilməsindən sonra istefalar da baş verməkdədir. Bir sıra media orqanlarında isə Müsavat barədə yazılanlara nəzər yetirdikdə elə təəssürat yaranır sanki artıq bu partiyadan əsər-əlamət qalmayıb, minlərlə adam istefa verib, yüzlərlə partiya üzvü xaric edilib.

Əslində qurultaydan bu günədək Müsavat Partiyasından neçə nəfərin xaric edildiyi, neçə nəfərin istefa verdiyini dəqiqləşdirmişik. Partiyanın təşkilat şöbəsindən verilən rəsmi xəbərə görə, qurultaydan keçən vaxt ərzində Müsavat Partiyasından cəmi 9 nəfər nizamnamənin tələblərini pozduqları üçün xaric edilib, dünən istefa verdikləri barədə xəbər yayılan 22 nəfər istisna olmaqla, 30 nəfər partiya üzvlüyündən istefa verib. Dünənki istefa verənlərlə birlikdə ümumilikdə 52 nəfər istefa vermiş sayılır.

Partiyaya qurultaydan indiyə qədər keçən müddətdə üzvlük üçün müraciət edənlərin və üzvlüyə qəbul edilənlərin sayı isə bundan 6 dəfə çoxdur. Bu vaxt ərzində 300 nəfərdən artıq yeni üzv qəbul edilib.

❑ E.SEYİDAĞA

# Cahangir Hacıyev də "göz altında!"

**İş adamlarının həbsi ölkə gündəminin əsas mövzularını arxa plana keçirib. Bu həbslərin Beynəlxalq Banka kredit borcuna görə aparıldığı iddia olunur; amma hüquq-mühafizə orqanları hələ ki rəsmi məlumat yaymağa tələsmir. Həbslərin məhz dövlət bankına kredit borcuna görə aparılmasını iş adamları barədə yalnız məhkəmənin qərarı-dələduzluq maddəsi təsdiqləyir.**




# Dövlət bankını soyanların arxasında kimlər var - Şok faktlar

## Hakimiyyət "öz içində" təmizləmə aparmaqla ölkədə siyasi baxışlarına görə həbslərin aparılmadığına dair dəlil ortaya qoymuş oldu; "Beynəlxalq Bank işi" bir sıra vəzifəli məmurların gizlətdiyi biznesini, onlara bağlı şirkətləri və iş adamlarını ortaya çıxarıb

Xəbərlərə görə, banka borcu olanların bəziləri həbsdən yalnız bir şərtlə qurtula biliblər: borclarını son qəpiyinədək qaytarmaqla. Məntiqlə ədalətli qərardır. Dövlətin pulunu *(Beynəlxalq Bankın səhmləri dövlətə aiddir)* qaytar, azadlığını qoru.

Dövlət bankını soyan bu adamların məlum olan siyahısı rəngarəngdir: sabiq icra başçısından tutmuş keçmiş deputata, şirkət müdirinə, holdinq rəhbərinə kimi...Mayın 13-də adı yaddaşlardan çoxdan silinən sabiq deputat, "Globus Plaza"nın sahibi Dünyamin Xəlilov saxlanılıb. O, mühafizəçiləri, xadimələri də daxil olmaqla, bir qrup işçisinin adına bankdan 3 milyondan artıq vəsait götürməkdə ittiham olunur. "Xəzər adaları" layihəsini reallaşdıran Hacı İbrahim Nehrəmli də dünəndən istintaq altındadır. Onun borcu isə nə az-nə çox, 70 milyon dollardır. Onun Beynəlxalq Bankla əlaqədar istintaqa çağırıldığı və 10 saat dindirildiyi Hacı İbrahimin rəhbərlik etdiyi holdinq tərəfindən rəsmi olaraq təsdiqlənib...

***

İddiaya görə, prezidentin etibarından istifadə edərək dövlətin pullarını müxtəlif adamlara verən Beynəlxalq Bankın sabiq rəhbəri Cahangir Hacıyev istefa verən tarixdən, yəni martın 18-dən bəri "göz altındadır". Ondan borclularla bağlı bütün məlumatlar alınıb, müqavilə sənədləri götürülüb və borcluların siyahısı tutulub. Xəbərlərə görə, C.Hacıyev "müdafiəsi"ni əvvəldən etibarlı qurub, belə ki, kimə nə qədər kredit verilməsi ilə bağlı ona yüksək vəzifəlilərin etdiyi xahişləri (zamini) də fiksə edib. Ölkənin ən iri bankına 14 il rəhbərlik etmiş C.Hacıyev bank-maliyyə sektorunun önəmli simalarından biri olmaqla yanaşı, ölkə prezidenti İlham Əliyevin ən yaxın çevrəsinə daxil olan şəxs kimi tanınırdı. Onun prezidentin inamını tam itirdiyi, amma istintaqa kömək etməsi səbəbindən azadlıqda saxlanıldığı da iddialar arasındadır.

Müxtəlif adamların Beynəlxalq Bankdan külli miqdarda kredit götürməsində vəzifəli məmurların da əlinin olduğuna dair xəbərlər sensasiya deyil. Məlumdur ki, iş adamlarının böyük əksəriyyəti oliqarx-məmurlara bağlıdırlar. Bu bağlılıq "krışalıq" səviyyəsində də var, şəriklik səviyyəsində də. Hətta bəziləri "iş adamı" kimi oliqarx-məmurların biznesinə rəhbərlik edərək məvacib alır. Xəbərlərə görə, "Beynəlxalq Bank işi" bir sıra vəzifəli məmurların gizlətdiyi biznesini, onlara bağlı şirkətləri, iş adamlarını ortaya çıxarıb. Bu adamlara külli miqdarda pul verilməsi, yəni zamin olmaq xahişini Beynəlxalq Bank rəhbərindən onlar edib. Onların kimliyi dəqiq bilinir və aydındır ki, C. Hacıyev heç vaxt astronomik borcun altına tək girməyə risk etməzdi və etməyib də. Amma faktı o zamana kimi gizlədib ki, neftin qiymətinin düşməsi ilə Maliyyə Nazirliyi devalvasiyadan qaçmaq üçün Beynəlxalq Bankı əlavə pul kütləsi verilməsi üçün "sıxıb". Bu zaman məlum olub ki, banka borcluların sayı və borcun miqdarı astronomik həddədir və üstəlik, bu adamlar pulları ola-ola, borclarını qaytarmaq haqqında düşünmürlər belə...

Yəni faktiki hökumət çətin fakt qarşısında qoyulub və yumşaq devalvasiya mümkün olmayıb, bir gündə manat 33 faiz ucuzlaşıb. Etibarlılığı şübhə doğurmayan mənbə "Yeni Müsavat" a deyib ki, bəzi iş adamları C. Hacıyevdən və hakimiyyətdəki məmur dayaqlarından istifadə edərək devalvasiyadan bir neçə saat öncə Beynəlxalq Bankda külli miqdarda manatı dollara çeviriblər ki, bu da dövlətə çox baha başa gəlib. İndi istintaq həm də bu maxinasiyada qazanc əldə edənləri axtarır, tapır və cəzalandırır.

***

Həbsə düşənlərin, məsələn, Bakıda zavodu, obyektləri və daşınmaz əmlakları olan Nizami Piriyevin borcunu qaytarmadığı və ya buna imkanı olmadığı üçün indi istintaq təcridxanasında oturduğunu iddia etmək o qədər də inandırıcı görünmür. Demək, prezidentdən gələn daha bir qəti tapşırıq da var: həddini aşanları cəzalandırmaq! Məlumatlara görə, dövlətin pulunu kredit şəklində götürüb iş yeri, fabrik, istehsal müəssisəsi yaratmağı vəd edən bəzi iş adamları bu vəsaiti bir sıra qonşu ölkələrdə, eləcə də Avropada özlərinə biznes yaratmağa, lüks villalar almağa xərcləyiblər. Üstəlik, dövlətin pulunu geninə-boluna xərcləsələr də, xaricdə Azərbaycanın mənafeyi naminə iş görməyiblər. Piriyev də bu sıradadır...

***

İqtidarın bu həbslərə Avropa Oyunları ərəfəsi qərar verməsi də ciddi maraq doğurur. Hökumət bu həbsləri niyə Avropa Oyunlarından sonraya saxlamadı? Niyə yarışlar ərəfəsi məmur korpusuna bu və ya digər dərəcədə bağlılığı olanlar *(məsələn, Hacı İbrahim Diasporla İş üzrə Dövlət Komitəsinin sədrinin qardaşıdır)* ya istintaqa cəlb edilib, ya da həbsə atılıb?

İddialara görə, əsas səbəb bank soyğunçularının ölkədən qaçmaq ehtimalıdır. Onlar istintaqa cəlb edilməklə faktiki nəzarətə alınırlar, ölkədən çıxmaq yasaqlanır. İkinci səbəb budur ki, prezident şəxsən bu mütəşəkkil dəstənin ifşasında *(bunların içərisində Bayraq Meydanının sabiq rəhbərinin korrupsiya əməlləri də var)* və cəzalandırılmasında maraqlıdır. Daha bir maraqlı xəbərə görə isə iqtidar bu istintaqların yekunu olaraq bir sıra məmurlarla vidalaşacaq, daha doğrusu, onlar canlarını həbsdən qurtardıqları üçün sevinəcəklər də...

Bu həbslər həm də hakimiyyətin yarışlar ərəfəsi imici üçün də vacibdir. Avropa Oyunları yaxınlaşdıqca iqtidara siyasi məhbuslarla bağlı qınaqlar da artır. İndi hakimiyyət "öz içində" təmizləmə aparmaqla ölkədə siyasi baxışlarına görə həbslərin aparılmadığına dair dəlil ortaya qoymuş olur...

❑ **"Yeni Müsavat"**

# Son həbslər nədən xəbər verir?



**Azər RƏŞİDOĞLU**

**Son günlər aparılan həbslərin pərdəarxasında nə durur? Bu suala cavab tapmaq üçün MDB məkanında, xüsusən də Gürcüstan, Ermənistan, Ukraynada baş verən prosesləri təhlil etmək lazım gəlir. Gürcüstanda B.İvanişvilinin qələbəsini təmin edən amillər Ermənistanda Q.Tsarukyanın şanslarını artırdı. Ukraynada milyarder Poroşenkonun qələbəsi iş adamlarının siyasətdə uğur qazanmasına şərait yaratdı.**

Bir sözlə, MDB məkanı üçün yeni variant - "oliqarxlar modeli" aktuallaşmaqdadır. Azərbaycanda son prezident seçkiləri zamanı yaradılan "Milyarderlər ittifaqı" da bu modelin üzərində düşünüldüyünü deməyə əsas verirdi. Model sadədir. Ziyalılarla oliqarxların bir araya gətirilməsini ehtiva edir. Lakin oliqarxiyanın siyasi hakimiyyətə gəlişi cəmiyyətə yaxşı perspektiv vəd etmir.

Oliqarxların əsas ideyası pul qazanmaqdır.

Əgər oliqarx siyasi hakimiyyətə can atırsa, demək, hakimiyyət rıçaqlarından faydalanmaqla daha çox maliyyə əldə etmək, yeni bazarlar qazanmaq və biznes imperiyalarının sərhədlərini genişləndirmək haqqında düşünür. Bu, praktikada dəfələrlə təsdiq olunmuş məsələdir.

2006-cı ildən başlayaraq oliqarxiyanın Azərbaycanın siyasi sisteminə sürətli inteqrasiyası da bunu bir daha sübut edir. 2006-cı ildə bir neçə oliqarx nazir postuna təyin edildi və bununla da nazir-oliqarxların əhatə dairəsi genişləndirildi.

Nəticədə korrupsiya və rüşvətin həcmi, miqyası müqayisə olunmaz dərəcədə artdı, qiymətlər dəfələrlə bahalaşdı, bürokratik aparat daha da möhkəmləndi. Oliqarxlar siyasi hakimiyyətə və dövlət idarəçiliyinə istisnasız olaraq biznes kimi yanaşırlar. Odur ki, inkişaf etmiş ölkələrdə oliqarxiyanı imkan daxilində siyasi hakimiyyətdən uzaq saxlamağa çalışırlar. Normal ölkələrdə oliqarxiyanın siyasi qərarlara birbaşa təsir etməsinə imkan vermirlər.

Onlar hakimiyyətə xeyriyyəçilik etmək üçün yox, pul qazanmaq üçün gəlir - ilkin mərhələdə seçkiyə xərclədiyini çıxaracaq, sonra biznesini böyütməyə başlayırlar, bu isə yeni əmlak bölgüsü anlamına gəlir.

Düzdür, Azərbaycanda biznes və bu biznesin sahibləri ya nəzarət altındadırlar, ya da ki, elə iqtidarın tərkib hissəsidirlər.

Azərbaycanda müstəqil biznesmen yoxdur, oliqarxlar var ki, onlar da elə bugünkü iqtidarın parçası sayılırlar. Lakin artıq onlar da sərvətlərini hökumət böhranına qurban vermək istəmirlər və odur ki, iqtidar üçün təhlükə mənbəyinə çevrilirlər.

Kənar təsirlər, o cümlədən Moskvanın xeyir-duası Azərbaycan üçün də aktuallaşıb. ABŞ prezidenti Barak Obama Cənubi Qafqaza az maraq göstərdiyindən Kreml Azərbaycanı da öz siyahısına salmaq istəyir. Azərbaycana yönəlik bugünkü təzyiqlər məhz bununla bağlıdır.

Rəsmi Bakı hələ ki, dirənir. Ancaq Azərbaycan hakimiyyəti içində Rusiyaya meylli gücün də imkanlarını arxa plana atmaq olmaz. Kreml hər an bu kartı işə sala bilər. Başqa sözlə, Kreml Ermənistan, hətta Gürcüstanda etdiklərini Azərbaycanda da təkrarlamaq həvəsindədir.

Odur ki, həm Azərbaycan, həm də Ermənistanda gələcək prezident seçkisində istənilən sürprizi gözləmək mümkündür.

Gözləmədiyimiz elə bir fiqur ortaya atıla bilər ki, onun şansı bir anda üstün görünə bilər.

Bir il öncə, Poroşenkonun prezident olacağını kimsə proqnozlaşdıra bilməzdi. Odur ki, oliqarxlar həmişə təhlükə mənbəyi olaraq qalır. Son həbslərin mərkəzində elə bu təhlükə dayana bilər...

YENİ MÜSAVAT
N 103 (6131) 14 may 2015



# Biz nə vaxt daha tolerant idik?

**Hüseynbala SƏLİMOV**

**Təxminən bir-iki ilin söhbətidi. Bir nəfər yazar bizimlə ayaqüstü söhbətdə dedi ki, inanıram ki, oliqarx məmurlarımız Azərbaycanı sevirlər, çünki onların həyati maraqları bilavasitə bu ölkə ilə - Azərbaycanla bağlıdır...**

O vaxt həmin yazara cavab vermədik. Ona görə yox ki, deməyə sözümüz yox idi. Yox, prinsipcə, söz tapmaq həmişə mümkündür...

Ona görə cavab vermədik ki, bu cür düşünənlər az deyil - çoxu elə həqiqətən də düşünür ki, oliqarx məmurlar Azərbaycanı hamıdan çox sevir...

Mənə qalsa, onların Azərbaycanı sevib-sevməsilə bağlı mübahisə açmaram. O səbəbdən ki, prinsip etibarilə, bu, heç nəyi həll etmir. Daha düzgün o olardı ki, sualı bir qədər başqa cür qoyaq: bəs onlar azərbaycanlıları necə, bu ölkənin insanlarını sevirlərmi?

Bax, burada məni heç kim inandıra bilməz. Ona görə ki, mənə həmişə elə gəlib ki, bu insanlar Azərbaycanın üstünü, təkini və sərvətlərini, dağını-daşını sevirlər, amma gəl, onun insanlarını sevmirlər...

Sevmirsənsə sevgiyə iddialı da ola bilməzsən. Sevməyi bacarmırsansa sevilməyi də umma... Bəlkə də onlar-həmin oliqarx məmurlar siyasi mandatlarını bu ölkənin insanlarından alsaydılar vəziyyət bir qədər başqa cür olardı, ən azı bir minnətdarlıq bir hissi olardı...

Amma bu ölkədə seçkilər necə keçirilir, hakimiyyət necə formalaşır, bu, hamıya bəlli... Ona görə də lirikaya qapılmağa elə bir ehtiyac yox-o səbəbdən ki, heç kim sevgi ummaq üçün əvəz verməyib bu ölkədə...

Demokratiya nəzəriyyəçiləri belə məsələlərə bir qədər fərqli yanaşırlar. Onlar belə hesab edir ki, ruhani hisslərin dairəsini süni şəkildə genişləndirmək lazım deyil - sevgi elə hissdir ki, onu ictimai münasibətlərə şamil etmək olmaz. Bu halda daha düzgünü və doğrusu, sevgidən yox, tolerantlıqdan və qarşılıqlı dözümlülükdən danışmaq olardı...

Bu istiqamətdə vəziyyət necədir? Tolerantlıq bəlkə də azərbaycanlıların, xüsusən də hakimiyyət mənsublarının ən sevimli sözüdür. Onlar yeri gəldi-gəlmədi, bunu gözə soxur, hətta Azərbaycanın bu məsələdə dünya üçün örnək ola biləcəyini deyirlər...

Bəli, Azərbaycan bəlkə də yeganə dövlətdir ki, burada multikulturalizm məsələləri ilə bağlı hətta dövlət institutu var. Di gəl, Azərbaycanı tolerant bir ölkə hesab etmək mümkündürmü?

Nə deyək? Tolerantlıqdan danışa-danışa bu ölkənin hakimiyyəti parlamentə bir nəfər belə həqiqi müxalifətçini buraxmadı, partiyaları formal, gərəksiz və "yurdsuz-yuvasız" qurumlara çevirdi, medianı budadı, insanların səsini boğdu, onların haqqını tapdadı, etiraz həvəsini yasaq etdi...

Bütün bu sadalananların hamısı yüksək demokratiya şüarları fonunda, tolerantlıqla bağlı siyasi nəğmələrin müşayiəti ilə baş verdi. İndi Azərbaycan əhli tolerantlığı yalnız bir səpkidə - etnik və dini qruplara münasibətdə başa düşür...

Bəli, burada hər şey qaydasındadır. Amma bu, hakimiyyətin işinin nəticəsidirmi? Əsla. Belə münasibətlər on illər ərzində formalaşmışdı. Bunun hakimiyyətin guya ki, apardığı siyasətə elə bir aidiyyəti yoxdur...

Əslində illərlə hakimiyyət bu ölkənin insanlarına inamsızlıq aşıladı, onlarda özlərinə qarşı natamamlıq kompleksi formalaşdırdı. Təsəvvür edin, indi faktiki olaraq etiraz aksiyalarına icazə vermirlər. Verəndə də elə ucqarları və elə ünvanları göstərirlər ki, orada aksiya keçirməyə dəyməz... Səbəbini də belə izah edirlər ki, guya ki, bu, digər vətəndaşların təhlükəsizliyi ilə bağlıdır...

Amma mənim yadıma 80-ci illərin axırı və 90-cı illərin əvvəli düşür. O vaxt insanlar hələ totalitar quruluşdan yenicə çıxmaq ərəfəsində idilər və yaxud da ki, yenicə çıxmışdılar. Bakının mərkəzində - Azadlıq meydanında on minlərlə insanın iştirak etdiyi böyük mitinqlər olurdu. Bu mitinqlərdə bircə nəfərin belə burnu qanamamışdı...

Ona görə də sual yaranır. Azərbaycanlılar o vaxt daha tolerant idi, yoxsa indi? Bəs cəmiyyətdəki o vaxtkı tolerantlıq haradan qaynaqlanırdı?.. Bəlkə elə onu da indiki hakimiyyət yaratmışdı?..

Bir daha xatırlatmaq yerinə düşərdi ki, tolerantlıq yalnız dini və etnik müxtəlifliyə münasibətdə dözümlü olmaq demək deyil, o, ümumiyyətlə, fərqli davranış tərzinə və fərqli baxışlara dözümlü olmaq deməkdir. Bunu isə Azərbaycanda yaxın gələcəkdə hətta arzulamağa dəyməz.

Rəsmilər deyir ki, bizdə fərqli baxışlara qarşı dözümsüzlük yoxdur. Bəlkə də belədir...

Amma fərqli baxanların yolu tez bir zamanda məhbəsdən keçir. Bəs bu nədir? Bəlkə adi təsadüf?..

# Qubad İbadoğlunun ofisində axtarış; sənədlər müsadirə edildi

## Hazırda ABŞ-da olan iqtisadçı bildirir ki, həbs təhlükəsi real olsa da, avqustda ölkəyə qayıdacaq...

**ADR hərəkatının sədri Qubad İbadoğlunun Bakıdakı ofisində mayın 13-də axtarış aparılıb. Musavat.com xəbər verir ki, bu barədə hazırda ABŞ-da olan iqtisadçı alim özü məlumat yayıb. Məlumatda deyilir:**

"Baş Prokurorluğun Ağır Cinayətlər üzrə İstintaq İdarəsinin əməkdaşları İqtisadi Tədqiqatlar Mərkəzinin ofisində axtarış aparılıb, 3 saatadək davam edən axtarışdan sonra mərkəzin və İctimai Birliklərin Mədən sənayesində şəffaflığın artırılması Koalisiyasının, Milli Büdcə Qrupunun bütün kompüterlərini və maliyyə-mühasibat sənədlərini müsadirə edərək apardılar. Bu, onu göstərir ki, ötən ilin aprel ayından bir qrup QHT-lərin əleyhinə aparılan istintaqdan 1 il keçməsinə baxmayaraq hələ də yekunlaşmayıb, vətəndaş cəmiyyətinə təzyiqlərin yeni mərhələsi başlayıb və sifariş yuxarıdan gəlib. Çünki ofisə gələnlər "Bu, bizlik deyil",- deməklə özlərini sığortalamaq istəyiblər. Hesab edirəm ki, bu mənim Mədən sənayesində şəffaflıq üzrə Beynəlxalq İdarə Heyətindəki fəaliyyətimlə bağlıdır. Çünki Mədən sənayesində şəffaflıq üzrə Beynəlxalq İdarə Heyətinin son iclasında Azərbaycan ən statusu tam hüquqlu üzvdən namizəd üzvə endirilib. Sabah ayın 14-də İqtisadi Tədqiqatlar Mərkəzi Açıq Hökumət Tərəfdaşlığı üzrə Fəaliyyət Planının monitorinq hesabatını açıqlayacaq. Bir gün əvvəl baş verənlər həm də ölkədə alternativ fikrin formalaşmasına qarşı xüsusi əməliyyat kimi də qiymətləndirilə bilər. Dəfələrlə bəyan etdiyim kimi, bir daha bildirirəm ki, rəhbərlik etdiyim İqtisadi Tədqiqatlar



Mərkəzinin fəaliyyəti hər il auditor yoxlamasından keçib və maliyyə-təsərrüfat fəaliyyəti Azərbaycan qanunvericiliyinə və beynəlxalq standartlara uyğun qurulub. Biz daimi hesabatlı və şəffaf işləmişik, bütün vergi öhdəliklərimizi də vaxtlı-vaxtında yerinə yetirmişik".

**Qubad İbadoğlu musavat.com-a verdiyi özəl açıqlamada isə bildirib ki, artıq ofisdə nə varsa hamısını müsadirə edib gediblər. Həbs təhlükəsinin real olduğunu vurğulayan Q.İbadoğlu, bununla belə, ölkəyə qayıdacağını da bildirib:** "Mən istənilən halda, avqustda ölkəyə qayıdacam. Dəfələrlə bəyan etdiyim kimi, rəhbərlik etdiyim mərkəzin fəaliyyəti auditor yoxlamasından keçib və maliyyə təsərrüfat fəaliyyəti Azərbaycan qanunvericiliyinə uyğun olub. Bu iş ötən ilin aprelindən başlayıb. Bir ildən artıqdır ki, istintaq aparılır. Nə isə baş verəcəyini istisna etmirəm".

Qeyd edək ki, mayın 14-də İqtisadi Tədqiqatlar Mərkəzi Açıq Hökumət Tərəfdaşlığı üzrə Fəaliyyət Planının monitorinq hesabatını açıqlayacaq. Bir gün əvvəl baş verənlər həm də ölkədə alternativ fikrin formalaşmasına qarşı xüsusi əməliyyat kimi də qiymətləndirilə bilər".

❑ **RÖYA**



# Milli Şuranın mitinq müəmması

## BŞİH-in aksiyanın gününü dəyişməsi narazılıq yaratdı

**Bakı Şəhər İcra Hakimiyyəti Milli Şuranın 17 may tarixinə təyin etdiyi "Talana son!" mitinqi ilə bağlı müraciətə cavab verib. BŞİH növbəti dəfə təxribat törədərək mitinqin təyin olunan tarixdə keçirilməsinə razılıq verməyib. BŞİH-in cavab məktubunda mitinqin mayın 16-da keçirilməsinə razılıq verildiyi qeyd edilib.**

BŞİH-in cavabı Milli Şurada etirazla qarşılanıb. Milli Şuranın mitinq komitəsinin rəhbəri, AXCP sədrinin müavini Fuad Qəhrəmanlı bildirib ki, əslində BŞİH 17 may mitinqi üçün müraciətə mənfi cavab verib: "Bakı Şəhər İcra Hakimiyyətinin mitinqin vaxtını dəyişməyə hüququ yoxdur. Bakı Şəhər İcra Hakimiyyətinin, sadəcə olaraq, mitinqə razılıq verib-verməmək haqqı var. Qurum bizim təyin etdiyimiz vaxta razılıq verməyib. Əksinə, "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanuna zidd olaraq mitinqin mayın 16-da keçiriləcəyi təqdirdə icazə verəcəkləri ilə bağlı məlumat yayıblar. Bakı Şəhər İcra Hakimiyyəti bu cür dolayı yolla icazə verməkdən imtina edib. Faktiki olaraq mayın 17-də mitinq keçirməklə bağlı müraciətimizə razılıq verilməyib. Biz mayın 17-də mitinq keçirmək üçün hazırlaşmışdıq. Çox güman ki, mayın 16-da mitinq keçirilməyəcək".

Xatırladaq ki, Milli Şura mayın 3-də də eyni ünvanda mitinq keçirmək üçün BŞİH-ə öncədən məktub ünvanlamışdı. İndi yaranmış vəziyyət o zaman da ortaya çıxmışdı. Belə ki, BŞİH mayın 3-də yox, 2-də mitinq keçirilməsinə razılıq verildiyini cavab məktubunda qeyd eləmişdi. Milli Şura isə bu cavabı qanunsuz sayaraq qəbul etməkdən imtina eləmişdi.

❑ **E.SEYİDAĞA**

# Nizaməddin Quliyev adının Müsavatdan istefa verənlərin siyahısında olmasına etiraz etdi

## "Mən həmin qrupun istefa verməsindən öncə - mayın 11-də tək istefa vermişəm və qərargaha gedib ərizəmi partiya rəhbərliyinə təqdim etmişəm"

**Mayın 13-də Müsavat Partiyasının Nizami rayon təşkilatından bir qrupun partiya üzvlüyündən istefa verdiyi barədə mediada xəbər yayılıb. Xəbərdə 22 nəfərin adının qeyd olunduğu siyahı da yerləşdirilib.**

Siyahıda birinci sırada adı qeyd olunan Nizami rayon təşkilatının keçmiş sədri, partiya **Məclisinin üzvü Nizaməddin Quliyev** redaksiyamıza gələrək bildirib ki, adının orada yerləşdirilməsi yanlışdır. Çünki o, partiya üzvlüyündən həmin qrupla birlikdə çıxmayıb, mayın 11-də Müsavat qərargahına gedib və istefa ərizəsini təqdim edib: "Mən media orqanlarına buradan bildirirəm ki, yaydıqları siyahıda düzəliş etsinlər. Mən həmin qrupun istefa verməsindən öncə-mayın 11-də tək istefa vermişəm və qərargaha gedib ərizəmi partiya rəhbərliyinə təqdim etmişəm. Mediada da mövqeyimi açıqlamışam. İndi mənim adımın o siyahının başında yazılması yanlış təəssürat yara-



dır. O işin təşkilatçısı mən deyiləm. Mən Müsavat üzvlüyündən çıxsam da müsavatçılıq ideologiyasına, əqidəmə sadiq adamam. Partiyanın bu vəziyyətə düşməsinin əleyhinə olmuşam. Vəziyyət o həddə gəlib çatıb ki, mən məcburiyyət qarşısında partiya üzvlüyündən istefa vermişəm".

**N.Quliyev onu da dedi ki, siyahını mediadan oxuyub. Həmin siyahıda Qubad İbadoğlunun rəhbərlik etdiyi ADR üzvləri də var:** "Təxminən 8 nəfəri ADR üzvləridir. Amma onların heç biri indiyə qədər Müsavat üzvlüyündən çıxmamışdılar. Bir daha bəyan edirəm ki, bu işin təşkilatçısı deyiləm. Həmin şəxslər hələ qurultaydan öncə partiyadan çıxmaq istəyirdilər. Mən onların qarşısını kəsmişəm, demişəm ki, gözləyin, vəziyyət düzələcək, hər şey yaxşı olacaq. Görünür, mən istefa verəndən sonra onlar bu addımı atmaq qərarına gəliblər".

❑ **E.SEYİDAĞA**



# Qərblə Rusiya arasında "Krımsız" anlaşma?

## Qabil Hüseynli: "Razılaşmalar həyata keçirilə, bu "ikinci soyuq müharibə"nin yenidən həlimləşməsi ilə əvəz oluna bilər"

**Ukrayna böhranı və bunun ardınca Rusiya-Qərb gərginliyi başladıqdan bəri ilk dəfə yüksək səviyyəli ABŞ-Rusiya görüşü baş tutub. Rusiyanın Soçi şəhərinə gələn ABŞ dövlət katibi Con Kerri həmkarı Sergey Lavrov və prezident Vladimir Putinlə danışıqlar aparıb.**

Danışıqlardan sonra tərəflər mülayim mesajlar veriblər. Con Kerri bildirib ki, qlobal problemləri həll etmək üçün dialoq davam etdirilməlidir. ABŞ dövlət katibi Ukrayna böhranını nəzərdə tutaraq bildirib ki, Minsk razılaşması tam şəkildə əməl edilsə, o zaman ABŞ və Avropa Birliyi Rusiyaya qarşı sanksiyaların ləğvinə başlayacaq. Kerri bir daha bildirib ki, ABŞ Minsk razılaşmasının tam yerinə yetirilməsinə təkid edir. Kerri Ukraynada bütün münaqişə tərəflərini atəşkəsin pozulmasının qarşısına almağa çağırıb.

Kerry Minsk razılaşmasının Ukraynada sülhə aparan ən yaxşı yol olduğunu bildirib və qeyd edib ki, bu nə qədər tez yerinə yetirilsə, bir o qədər yaxşıdır. O, ABŞ-la Rusiyanın bir çox məsələlərdə bir-biri ilə razılaşdığını, lakin hələ də müxtəlif detallar ətrafında fikir ayrılıqları mövcud olduğunu etiraf edib. Lavrov qeyd edib ki, ABŞ-la Rusiya Minsk razılaşmasının tam yerinə yetirilməsi üçün nüfuzlarından istifadə etmək razılığına gəliblər.

Yeri gəlmişkən, məlum olub ki, Putin Kerrinin xahişi əsasında ukraynalı pilot Nadia Savçenkonu azad etməyə söz verib. Rusiya xarici işlər naziri Sergey Lavrov isə bildirib ki, Ukrayna münaqişəsi ilə bağlı hələ də tərəflər arasında müəyyən fikir ayrılıqları hələ də qalır. Sitat: **"Conla atəşkəsin davamlı olaraq pozulması mövzusunda həmfikirik. Ağır silahların geri çəkilməsi məsələsində hər iki tərəf, ən çox da bir tərəf anlaşmaları pozur".**

Con Kerrinin Putinlə görüşündə Suriya, Yəmən və digər beynəlxalq və regional münaqişələr müzakirə olunub. Bundan sonra isə Con Kerri NATO xarici işlər nazirlərinin Antalya toplantısında iştirak etmək üçün Türkiyəyə gedib.

Dünya mediasının əsas xəbər gündəminə çevrilən Soçi görüşündə ən çox diqqət çəkən məqam Krım məsələsinin arxa plana keçməsi oldu. Tərəflərin açıqlamalarında əsas vurğu məhz Ukraynanın şərqində baş verən hadisələrə və bu bölgədə sülhün əldə olunmasına hesablanmışdı. Con Kerri isə açıq şəkildə bəyan etdi ki, əgər Minsk anlaşması yerinə yetirilərsə, Qərb Rusiyaya qarşı sanksiyaları dayandıra bilər.

**Politoloq Qabil Hüseynli Kerri ilə Lavrovun görüşünü tarixi hadisə hesab edir. Onun sözlərinə görə, ötən müddətdə bir neçə dəfə Lavrov Kerri ilə görüşmək üçün xahiş etsə də, amerikalı həmkarı hər dəfə bu xahişləri geri çevirib:** "Əksər politoloqlar hesab edir ki, ABŞ-ın son dövrlərdə qərarlı addımları, yəni Rusiyanın sərhədləri boyunca NATO silahlı qüvvələrini yerləşdirməyə başlaması və bu məsələdə də özünün fəal rol oynaması Rusiyada kifayət qədər təşviş yaradıb. Rusiyanın bir sıra qoşun növləri üzrə hərbi manevrlər keçirməsi, "nüvə dəyənəyi" vasitəsilə təhdidlərə əl atması bu təşvişin nəticəsi imiş. Bu gün Rusiya Baltik dənizindən Qara dənizə qədər böyük bir sahədə NATO-nun müharibədən sonrakı ən böyük sipəri ilə baş-başa qalıb. Üstəlik, Türkiyəyə yollanan Kerri Antalya şəhərində Rusiyaya qarşı sanksiyaların və eləcə də digər tədbirlərin yeni dalğası üzərində təkidli müzakirələr aparmalı imiş. Rusiya bütün bunlardan xəbərdar idi. Və elə Antalya görüşü ərəfəsində məhz Kerri ilə təmasları qurmağa inadla can atırdı".

**Q.Hüseynli deyir ki, Kerri-Lavrov-Putin görüşünün baş tutmasında Almaniya kansleri Merkelin Moskvaya səfəri mühüm rol oynayıb. Ekspertin fikrincə, Merkel həm Amerikanın, həm NATO-nun planları və Rusiyanı gözləyən ağır aqibət barədə Putini inandıra bilib:** "Əgər danışıqlar stolu ətrafında əldə edilmiş razılaşmalar həyata keçirilə bilsə, bu, "ikinci soyuq müharibənin" yenidən həlimləşmə ilə əvəz olunmasına gətirib çıxaracaq. Çünki həm Merkel-Putin, həm Kerri-Putin və Kerri-Lavrov görüşlərində dünyanın müasir və gələcək geosiyasi düzəni barədə prinsipial razılaşmalar əldə edilib.

Burda əsas diqqəti çəkən məqam odur ki, indiyə qədər özünü "super dövlət" qismində aparan Rusiya indi regional dövlət səviyyəsində davranışlar nümayiş etdirir. Zənnimcə, bu, Qərbin böyük psixoloji qələbəsidir".

**Qabil Hüseynli Soçi danışıqlarında Krım mövzusunun arxa plana keçməsi faktını qəbul etsə də, düşünür ki, proseslərin bu cür gedişi Qərbi üstün vəziyyətə çıxarıb və sonrakı mərhələdə bu mövzuya qayıtmaq ola bilər:** "Düşünürəm ki, hadisələr bu cür inkişaf edərsə, Qərb nəinki Krım məsələsində, eləcə də postsovet məkanındakı bütün münaqişəli məsələlərdə Rusiyaya güzəştə getməyəcək. Məsələn, bunlardan birini misal gətirmək olar. Qərb Cənubi Qafqazda təşəbbüsü ələ almaq niyyətindədir. Bu məqsədlə özü üçün strateji əhəmiyyətə malik olan "Transxəzər" qaz kəməri layihəsini reallaşdırmaqda qərarlıdır. Həm də bu layihənin təhlükəsizliyi üçün bölgədəki həm Azərbaycana, həm də Gürcüstana aid münaqişəli məsələləri yoluna qoymaq istiqamətində ciddi səylər göstərmək niyyətindədir.

Söylədiklərimizi belə ümumiləşdirə bilərik ki, NATO-nun Antalya görüşündə də Rusiyanı test edə biləcək qərarlar qəbul ediləcək. Rusiyanın sonrakı davranışları ciddi nəzarət altına alınmaqla sanksiyalar sistemi davam etdiriləcək. Danışıqlar hələ hər şey demək deyil, əsas məsələ hərəkət, atılacaq real addımlardır. Əksər ölkələr son dövrlərdə cərəyan edən dünya iqtisadi böhranının səbəbini Rusiyanın Ukraynaya təcavüzü ilə bağlayır. Və belə hesab edirlər ki, Rusiyanın özünə də böyük zərbə vurmaqda davam edən bu böhranı aradan qaldırmaqda hamı birgə hərəkət etməlidir".

❑ **KƏNAN**

# İran-Ermənistan dostluğunun tək səbəbi



## Bəs İrandakı 35 milyonluq türk toplum və dini liderin azərbaycanlı olması necə olsun?..

**Kimnə deyir-desin, İran rəsmilərinin Azərbaycanla dostluq-tərəfdaşlıq əlaqələri barədə bəyanatlarını səmimi saymaq olmur. Çünki Azərbaycanla dost olduğunu iddia edən bir qonşu ölkə, başqa bir qonşunun - Ermənistanın həmin bu "dost ölkə"nin ərazisinin 20 faizini işğalda saxlamasını görməzlikdən gəlməzdi. Üstəlik, işğalçıya qucaq açmaz, onu gücləndirməz, ayaqda saxlamazdı.**

Bu haqda çox yazmışıq. Yenə yazaq. Çünki İran neçə vaxtdır nə yazıqlar ki, elə bu işlə məşğuldur: Tehran illərdir təcavüzkar dövlətlə iş birliyini gücləndirir, onunla bütün sahələr üzrə əlaqələri möhkəmləndirir, ilbəil dost-doğmalaşır.

İran prezidenti Həsən Ruhaninin iki gün öncə Tehranda Ermənistanın yeni səfiri Artaşes Tumanyanla keçirdiyi görüş zamanı söylədiyi sözlər bunun növbəti təsdiqidir. "Fars" agentliyinin yaydığı xəbərdə deyilir ki, prezident iki ölkə arasında əlaqələrin genişləndirilməsi üçün heç bir əngəlin olmadığını deyib və qeyd edib ki, Tehranla İrəvan qarşılıqlı əməkdaşlıqla bahəm, beynəlxalq təşkilatlarda əməkdaşlıq üçün də məqbul səviyyəyə malikdir. Ruhani ümidvar olduğunu bildirib ki, İranla Ermənistan arasında münasibətlər yeni səfirin missiyası dövründə də genişlənəcək.

Buna zərrəcə şübhə eləmirik, fars-erməni dostluğu və qardaşlığı önümüzdəki illərdə də güclənəcək. Ən azı ona görə ki, cənab Ruhaninin də vurğuladığı kimi, bunun qarşısını kəsəcək əngəl yoxdur...

*****

Şəksiz, qonşu ölkələrin öz aralarında münasibət qurmasında qəbahətli bir şey yoxdur. Ancaq konkret halda, söhbət biri işğalçı, digəri isə - islam dünyasında liderliyə iddia edən qonşu ölkədən gedirsə, situasiya artıq dəyişir. Məsələ də zatən, bundadır.

Biz məzhəbçi, bölücü deyilik, fəqət məcburuq yenə müqayisə aparmağa: gəlin, bu yerdə müsəlman-şiə İranı ilə müsəlman-sünni Türkiyənin müsəlman-şiə Azərbaycanın işğal məsələsinə münasibətini yanaşı qoyaq.

Hamı bilir ki, Tehran İrəvanla iqtisadi-ticari, siyasi-diplomatik sahələrdə əməkdaşlığı ildən-ilə gücləndirir, Türkiyə isə əksinə, "Azərbaycan torpaqları azad edilməyincə və yaxud azad edilməyə başlamayınca" Ermənistanla sərhədlər açılmayacaq" deyir. Eyni şərti illərdir Pakistan dövləti bəyan edir.

Halbuki əlahəzrət məntiq bunun tam əksini diktə edir. Həm də o səbəbə ki, Türkiyədən, Pakistandan fərqli olaraq İranda çox böyük, 35 milyonluq bir azərbaycanlı-türk toplumu yaşayır, üstəgəl də ölkənin sözünün üstündə söz olmayan dini lideri, möhtərəm Ayətullah Əli Xameneyi azərbaycanlıdır!

Bəs təcavüzkar ermənilərə, Şuşa məscidində heyvan saxlayan işğalçıya müsəlman-şiə İranın, dindaş ölkənin bunca sıcaq münasibəti, təcavüzkarı faktiki bəsləməsi, ona ən kritik vaxtda öz ərazisindən nəfəslik açıb da bu nəfəsliyi sanki Azərbaycanın acığına, problemin ədalətli həllini səbirsizliklə gözləyən 1 milyon müsəlman qaçqının acığına ildən-ilə böyütməsi nə ilə bağlıdır?

Bunu adı nə?

O hansı dəyərdir, ümmət maraqlarından üstün hansı maraqdır ki, İslam dünyasının favorit ölkə statusuna iddia edən "qardaş və dindaş" İranı, müsəlman İranı, məsələn, müsəlman Pakistan və müsəlman Türkiyədən fərqli olaraq Ermənistanla qardaşlaşdırıb?

Cavab belədir: bu dostluq təbii ki, nə ümmət maraqlarından qaynaqlanır, nə də ümumbəşəri dəyərlərdən. Bu, sadəcə, türkün acığına və türk birliyi əleyhinə tarixi fars-erməni dostluğunun davamıdır.

Yalnız bir şeyə təəssüflənmək qalır: nədən İrandakı nüfuzlu türk toplumu səsini çıxarmır? Nə üçün ölkənin azərbaycanlı hörmətli dini lideri müsəlman Azərbaycan Respublikasına, onun müsəlman xalqına bu boyda haqsız münasibəti özlərinə rəva bilirlər? Və nə vaxtadək?

❑ **Zahid SƏFƏROĞLU**



# Xəyanətin məbləği

Zamin HACI
zaminhaci@gmail.com

"Sən dəsmalı gətir, danışmaq yetər,
Dolanır başımda pis-pis fikirlər"
**("Otello", Şekspir)**

**Azərbaycan dünyaya Günəş kimi doğmaqda davam edir, bunun əlamətlərindən biri hazırda iqtisadi ədəbiyyatlara düşmək üzrədir. "Maliyyə xəyanəti" - ölkə mediasının uydurduğu, qoltuğunun altından çıxardığı təzə bank termini belənçik adlanır. "Beynəlxalq Bank"ın keçmiş şefi Cahangir Hacıyevin ətrafında cərəyan edən proseslər Azərbaycanın necə karikatur bir iqtisadi, siyasi sistemə malik olduğunu göstərir, elə medianın maliyyə xəyanətində suçladığı adamlar da bu "kruqdandır". Elə bil ölkəmizin maliyyə sektoru ər-arvad, ailə münasibətləri kimi bir təməl üzərindəymiş, indi burda xəyanət olubdur.**

Bəs niyə konkret hüquqi terminlərdən, iqtisadi anlayışlardan yararlanmırlar, xəyanət kimi bədii sözü işlədirlər? Çünki dövlət bazar iqtisadiyyatı, makroiqtisadi qanunlar, liberal dəyərlər əsasında idarə olunmur, bütün sistem ailə-klan münasibətlərinə, zəncirin həlqələrinin aşağıdan yuxarıya ümumi qazanı *("obşiy kotyol" yazaq, anlaşıqlı olsun, çünki bizim pullu yapistlər rusdillidir)* doldurmasına xidmət edir. Ona görə də dünənə qədər yapizmin vitrin siması olan gənc bankirlər, dünya brendlərini guya Bakıya daşıyan ingilisdilli "ağ yaxalıqlılar" qəfildən xəyanətdə suçlanır, qara qüvvə elan edilir, onların əmlakı, qazandıqları vəhşicəsinə, aman verilmədən yağmalanır. Bu proses Fərhad Əliyev və Rafiq Əliyev qardaşlarından başlanıb, Heydər Babayev "Quska" və AMAY Abdullada davam edib, şübhə yoxdur ki, "Nizami Piriyev, Cahangir Hacıyev və kompaniyası"nda dayanmayacaqdır. Avtoritar sistemə daim suç keçiləri lazımdır. Su meymunun boğazına çıxanda, ya da neft topuğa düşəndə - proses eyni cür gedir.

Həbslər, istintaq prosesi niyə sirli, qapalı, yarıgizli aparılır? Burda hüquq-mühafizə orqanlarını başa düşmək lazımdır: onlar gözəl bilir ki, şayiə nə qədər çox olsa, nə qədər artıq biznesmen və bankir qorxudan "altını batırsa" sonra bunları toplu halda yolmaq daha asandır. O üzdən "70 nəfər bankir saxlandı", "Filankəsi tutublar, behmənkəsi də istintaqa aparacaqlar" tipində söhbətlər yayırlar. Yeri gəlmişkən, qara polkovnik Hacı Məmmədov böyük ehtimalla indi MTN-in zindanında qımışır: axı onun vaxtilə həyata keçirə bilmədiyi prosesi indi hüquq-mühafizə orqanları qanuni əsaslarla tətbiq edirlər və Cahangir Hacıyevi tutub soyurlar. Hacıyev özü isə kədərlə düşünür: "Hacı bunlardan insaflı idi, bir-iki milyon istəyirdi. Bunlar yüz milyonları alıb sakitləşməyəcək".

Dövlət Bayraq Meydanı idarəsinin keçmiş müdiri isə hətta yapizm üçün də unikal kriminal buket hədiyyəsi almışdır. Onu Bakıda hasar çəkilişində daş oğurlamaqdan tutmuş camaatın ev pulunu mənimsəməyə qədər min bir cinayətdə suçlayırlar. Hələ üstəlik anası erməni imiş! Dəhşətdir! Adə, vur! Elə bil bu bədbəxt oğlu anasını da özü seçməli imiş. Bəzi mətbuat nümayəndələri isə hətta daha uzağa gedir, manatın devalvasiyasını da həmin başabəla bayraqdara yükləyirlər. Halal olsun. Qabaqdan Laçının işğalı gəlir, görün neyləyirsiniz. Basın onu da Cahangir və kompaniyasının boynuna.

Şəxsən mən böyük sevinclə, gülərək bu prosesi izləyirəm. Səbəb sadist ya da sinik olmağımız deyil, biz kimsənin bəlaya düşməsini arzu eləmirik. Sadəcə, bu adamlar avtoritar sistemə xidmət edib pullananda bu pulların qanuni və dayanıqlı əsasları olmadığını da bilməli idilər. "Dünya beş gündür" çürük səfsəfəsi ilə yaşayırdılar, Azərbaycan xalqının heç bir qlobal problemini, ölkəmizin gələcəyini düşünmürdülər, nəticə də belə olmalı idi. Hələ sevinsinlər biz tam Şimali Koreya olmamışıq. Orda rejim şefinə "xəyanət" edənləri itə yedizdirir, topa qoyub atırlar.

Canavarlar, deyilənə görə, ağız-ağıza yatırlar. Bir-birindən ehtiyat elədikləri üçün. Görünür, indi kimsə pis yatıb - arxasını çevirib. Xəyanət edib...

# Moskvanın "Yaxın xaric"ə qarşı yeni təhdidi fiasko oldu

**Azərbaycan prezidenti İlham Əliyevin Avropa Birliyinin (AB) mayın 21-22-də Latviyanın paytaxtı Riqada keçiriləcək "Şərq Tərəfdaşlığı" sammitinə qatılacağı dəqiqləşib. Sammitdə Ukrayna, Ermənistan, Moldova prezidentlərinin və Gürcüstanın baş nazirinin iştirak edəcəyi də artıq təsdiqini tapıb.**



# Bakı Kremlin hədəsini geri çevirdi

## Prezident İlham Əliyev Avropa Birliyinin Riqa sammitinə qatılmaq qərarı verdi; Rusiyanın Azərbaycan və 5 dövlətə qarşı şantajı keçmədi; qərarın Nikolay Patruşevin Bakı səfərinin sonuncu günü açıqlanması təsadüfdürmü?

"Şərq Tərəfdaşlığı" Proqramının üzvü olan 6 postsovet ölkəsindən yalnız Belarusun zirvə toplantısına hansı səviyyədə qatılacağı hələlik aydın deyil - bu, prezident Aleksandr Lukaşenko da ola bilər, baş nazir də. Riqa sammitində həmçinin Almaniya kansleri Angela Merkel, Fransa prezidenti Fransua Olland və digər Avropa liderləri iştirak edəcək.

***

Vurğulayaq ki, AB-nin "Şərq Tərəfdaşlığı" Proqramının, bu proqramın tərkib hissəsi kimi assosiativ üzvlüyün əsas hədəfi adı çəkilən postsovet ölkələrinin Rusiyanın siyasi-hərbi orbitindən uzaqlaşdırmaq və tədricən onların AB-yə inteqrasiyasına və qəbuluna zəmin yaratmaqdır.

Proqram çərçivəsində indiyədək bir neçə ali toplantı keçirilib. Gürcüstan, Moldova, Ukrayna təşkilatla assosiativ sazişi imzalayıb. Azərbaycan və Belarus isə Moskvanın münasibətindən ehtiyatlanaraq daha çox gözləmə mövqeyi tutub. Bakı hələ ki, yalnız viza rejiminin sadələşdirilməsini nəzərdə tutan sənədi imzalayıb.

Ermənistan isə bəlli səbəbdən AB ilə ən ziyansız sənədə belə qoşulmaqdan çəkinib. Hərçənd uzun müddət qurumla inteqrasiya yönündə, bur az da Kremldən gizli formada danışıqlar aparıb. Ancaq Moskvanın qəzəbinə tuş gələndə dərhal "valı dəyişib" və Gömrük İttifaqına, Avrasiya Birliyinə qoşulub.

Onu da yada salaq ki, rəsmi Bakı balans siyasətinə görə indiyədək "Tərəfdaşlıq proqramı"ndan məsafə saxlasa da, sammitlərə bir qayda olaraq ən yüksək səviyyədə qatılıb. Sonuncu dəfə - ötən ilin payızında belə bir zirvə toplantısı Praqada keçirilmişdi və orada da prezident İlham Əliyev şəxsən iştirak eləmişdi.

***

Lakin budəfəki iştirak məsələsi yetərincə fərqli, daha mürəkkəb regional vəziyyətə təsadüf etməsi səbəbindən ən çox diqqətdə idi. Məxsusən, Ukrayna böhranına görə Qərblə münasibətləri görünməmiş şəkildə korlanmış, "qılıncının belə kəsdiyi" Moskva Riqa sammitinə olduqca həssas, aqressiv münasibətdə idi.

Təsadüfi deyil ki, Rusiya XİN-in nümayəndəsi Aleksandr Lukaşeviç bəyanatla çıxış edərək "Şərq Tərəfdaşlığı" sammitinə qatılacaq ölkələri hədələmişdi. Lukaşeviç bildirmişdi ki, Moskva Riqa sammitini anti-Rusiya aktı hesab edir və buna "kifayət qədər sərt, prinsipial" reaksiya verəcək.

Diplomat əlavə eləmişdi ki, Kreml toplantıya "olduqca mənfi" yanaşır, bununla belə, Rusiya XİN sammitin gedişini izləyəcək. **"Lakin artıq aydındır ki, bizim mövqeyimiz kifayət qədər sərt və prinsipial olacaq. Çünki biz görürük ki, bu tərəfdaşlıq hara gedir və bu proqramın iştirakçılarının, hər şeydən əvvəl Avropa İttifaqının mövqeləri nəzərə alınmaqla kənardan hansı çalarlar kəsb edir"** - vurğulamışdı XİN rəsmisi.

***

Bu, faktiki Azərbaycan da daxil, 5 dövlətə, eləcə də AB-yə, Qərbə qarşı açıq şantaj siyasəti idi *(Ermənistan onsuz da Rusiyanın quberniyası sayılır)*. Odur ki, 5 dövlətin hansı səviyyədə Riqa toplantısında iştirak edəcəyi analitikləri və medianı ən çox düşündürən mövzulardan idi.

Böyük ehtimalla, məhz prezidentlərin tədbirdə iştirak qərarını yumşaltmaq naminə həmin bəyanatdan az sonra Avropa Birliyinin genişlənmə və qonşuluq siyasəti üzrə komissarı Yohannes Xan xüsusi açıqlama verməli olmuşdu. Qeyd eləmişdi ki, rəsmi Moskvanın bu cür təhdidi məyusluq doğurur.

**"Bununla belə, mən bu bəyanatdan az narahatam, çünki Riqa sammiti göstərəcək ki, dostluq və sülh münasibətləri mümkündür. Biz Rusiyanı beynəlxalq qanunvericiliyə əməl etməklə bu cür münasibətlər saxlamağa dəvət edirik"** - demişdi AB yetkilisi. Bugünlərdə isə xəbər yayıldı ki, Riqa sammitinin yekun bəyannaməsi layihəsi Rusiyanı qəzəbləndirməmək üçün qismən yumşaldılıb...

***

İstənilən halda, bu, Qərbin nüfuzlu bir qurumunun mötəbər toplantısıdır və hansı sənədin qəbulundan asılı olmayaraq, "Yaxın xaric" ölkələrinin orada ən yüksək səviyyədə iştirakından Kreml əsla məmnun qalmayacaq. Çünki quruca tet-a-tet təmasların özü də ünsiyyət, danışıq, gələcəyə ünvanlı planların müzakirəsi və ilkin razılaşdırılması üçün şans deməkdir.

Odur ki, Moskvanın hədələrinə rəğmən *(Gürcüstan, Moldova, Ukrayna üçün bu hədələr onsuz da çoxdan əhəmiyyətsizləşib)* Azərbaycan prezidentinin Riqaya getmək qərarı verməsi prinsipial əhəmiyyət daşıyır və əslində Moskvanın məlum təhdidini geri çevirməsi anlamına gəlir.

Diqqəti çəkən həmçinin belə bir qərarın Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin Bakı səfərinin sonucu günü, onun İlham Əliyevlə görüşündən cəmi bir neçə saat sonra açıqlanmasıdır. Təsadüfmü?..

***

Əlavə edək ki, yerli analitiklər də bu ərəfədə Riqa zirvəsində Azərbaycanın dövlət başçısı səviyyəsində iştirakını milli maraqlar baxımından zəruri sayırdılar. Arqumentlər də belə idi ki, bu, xarici təhdidlərə rəğmən, ölkənin müstəqil xarici siyasət yürütməsinin nümayişi olardı. İkinci tərəfdən, hesab olunurdu ki, Rusiyadan ifrat ehtiyatlılığa lüzum yoxdur və bu, Kremli daha da şirnikləndirər.

Nəhayət, belə bir gerçəklikdən çıxış edilirdi ki, Rusiya Avropa Birliyi ilə assosiativ saziş imzalamış zəif Moldova və Gürcüstana nə edə bilib ki, onlardan qat-qat güclü, energetik müstəqilliyi olan Azərbaycana nəsə eləsin?

**Qalır indi Rusiyanın Bakıya "nəsə" etməsi...**

**❑ Siyasət şöbəsi**

**“İndi Avropa Birliyinin Şərq Tərəfdaşlığı Proqramı özünün həssas dövrünü yaşayır. Hətta bu ərəfədə gözlənilən Riqa sammiti də getdikcə artan sualların hamısını cavablandıra bilməsə də daha çox nəzərlər Azərbaycana yönələcək”. Bu sözləri “Yeni Müsavat”a açıqlamasında bir dönəm Şərq Tərəfdaşlığı Proqramının Azərbaycan üzrə koordinatoru olmuş iqtisadçı-ekspert Qubad İbadoğlu qurumun mayın 20-22 də keçiriləcək zirvə görüşünü şərh edərkən deyib.**

**“AB iqtisadi və təhlükəsizlik sahəsində güvənli tərəfdaşı olan rəsmi Bakının Strateji Modernləşmə Proqramı çərçivəsində vacib olan islahatlar aparmayacağından narahatdır”**

# Riqa sammiti - it hürən, yoxsa işıq gələn səmtə?

## Yeganə Hacıyeva: “Rusiya öz tərəfdaşlarını gizli və açıq şəkildə Riqa zirvəsinə qatılmamağa təhrik edir”

**İbadoğlu deyir ki, Avropa Birliyi Azərbaycanın bu sammitdə yüksək səviyyədə təmsil olunmasında və sazişlərin imzalanmasında maraqlıdır:** “Çünki Güney Qafqaz regionunda Rusiyanın Avropadan ala biləcəyi yeganə ölkə Azərbaycandır. Azərbaycan da indiyə qədər Rusiya ilə bu qədər yaxın və Qərbdən indiki qədər uzaq olmayıb. Təbii ki, ölkənin xarici siyasət kursunda balanslaşdırmaya üstünlük verməsi ənənəvi olaraq iki qütb arasında hərəkəti zəruri edir. Amma Azərbaycana bu siyasəti davam etdirmək indiki zamanda olduğu qədər heç vaxt çətin olmayıb. Son zamanlar Rusiyanın artan təzyiqləri AB və ABŞ münasibətdə Azərbaycanın mövqeyində dəyişikliklər yarada bilər. Əgər yaxın zamanlarda Azərbaycan həmin təzyiqləri neytrallaşdırarsa, Riqa sammitində prezident səviyyəsində iştirak edəcək. Əks təqdirdə, nümayəndə heyətinə xarici işlər naziri başçılıq edəcək. İstənilən halda mən Avropa Birliyi ilə Azərbaycan hökuməti arasında ”Assosiasiya Sazişi və Dərin və Hərtərəfli Azad Ticarət Razılaşması"nın (DCFTA) imzalanmasını gözləmirəm".

**Qubad İbadoğlunun fikrincə, bu mərhələyə qədər Azərbaycan müəyyən mərhələ keçməlidir:** “Riqa sammitində ən yaxşı halda ”Strateji Modernləşmə Sazişi" imzalana bilər ki, bu sənəd də aralıq dövründə Avropa Birliyi ilə Azərbaycan arasında münasibətləri tənzimləməyə xidmət edəcək. Düşünürəm ki, indiki situasiyada Avropa Birliyinin Riqa Sammitinə qatılmaq Azərbaycan üçün çox önəmlidir. Azərbaycan nümayəndə heyətinə dövlət başçısının, yoxsa nazirlərdən birinin rəhbərlik etməsi ilə bağlı son qərar Rusiyanın bu məsələ ilə bağlı mövqeyindən asılı olacaq".

**“125-lər” Siyasət Klubunun üzvü Yeganə Hacıyeva isə düşünür ki, Riqa zirvəsində Avropa Birliyi Şərq Tərəfdaşlığı sahəsində dostlarını və qeyri-dostlarını müəyyən edəcək:** “Sammit çərçivəsində 3 irimiqyaslı tədbir - media problemləri ilə bağlı konfrans, vətəndaş cəmiyyəti forumu və biznes forum keçirilməsi planlaşdırılıb. Mayın 7-də Brüsseldə Riqa Sammiti öncəsi Avropa Birliyi xarici işlər nazirlərinin görüşü Azərbaycan, Belorus və Ermənistan üçün ŞTP (Şərq Tərəfdaşlığı Proqramı) çərçivəsində ilə ticarət imkanlarının müzakirəsi oldu. AB-nin ŞTP-dəki digər üç ölkə - Moldova, Gürcüstan və Ukrayna ilə münasibətləri aydındır. Riqa sammitində məhz Azərbaycan, Belorus və Ermənistanla münasibətlərin imkanları dəyərləndiriləcək. Avropa Birliyi 6 ölkə ilə qarşılıqlı əlaqələr qurulmasında məhz individual yanaşmanı prioritet seçib. Riqa sammitində altı tərəfdaş ölkə ilə bir necə məsələnin - viza rejiminin sadələşdirilməsi, qısamüddətli səfərlər zamanı viza tətbiqinin ləğv olunması, sektoral əməkdaşlıq, tərəfdaş ölkələrdəki islahatların Avropa Birliyi tərəfindən dəstəklənməsi, ölkələr arasında ictimaiyyət nümayəndələrinin və cəmiyyətlərin qarşılıqlı əlaqələrinin inkişafı, energetika , nəqliyyat və digər sahələrdə işbirliyinin dəyərləndiriləcəyi gözlənilir. Bundan başqa, samitdə yüksək siyasi səviyyədə aparılacaq diskussiyalarda Avropa Qonşuluq siyasətinə yenidən baxılması və əlavələr edilməsi üçün əla şans yaranıb. Ukrayna faktiki olaraq Rusiya ilə müharibə vəziyyətindədir. Belə bir halda Avropa Birliyinin şərq qonşularına dəstəyi önəmlidir. Bu sammitdə müzakirəyə çıxarılacaq əsas məsələlərdən biri Avropa Birliyinin Ukrayna və Gürcüstanla viza rejimin qaldırılması üçün konkret addımların atılması olacaq”.



**“Sammitdə yüksək siyasi səviyyədə aparılacaq diskussiyalarda Avropa Qonşuluq siyasətinə yenidən baxılması və əlavələr edilməsi üçün əla şans yaranıb”**

**Yeganə Hacıyevanın sözlərinə görə, Rusiya Riqa sammitini Qərbin ona qarşı növbəti addımı kimi dəyərləndirir və öz tərəfdaşlarını gizli və açıq şəkildə zirvəyə qatılmamağa təhrik edir:** “AB Ukraynaya birtərəfli imtiyazlı şərtlərlə ticarət əlaqələri təklif edib. Bu çox böyük dəstəkdir. Sadəcə, konflikt üzündən Ukrayna bu dəstəkdən tam olaraq yararlana bilmir. AB-nin Ukrayna vətəndaşlarına vizasız girişin tətbiq olunmasını yubatmasının əsas səbəbi isə təbii, Rusiya ilə konfliktə görə AB zonasına aktiv miqrasiya olacağı qorxusudur. Ukrayna vizasız zonaya daxil edilsə aktiv miqrasiyanı önləmək üzrə fəaliyyət planı artıq hazır olsa da Avropa komissiyaları Ukraynanın bu proqramı tam həyata keçirə biləcəyinə şübhə edir. Proqramın əsas şərti sərhəd-gömrük sistemində islahatlar aparılmasıdır . Müharibə vəziyyətində olan ölkənin bunu edə biləcəyi böyük şübhə altındadır”.

**“Riqa sammitində məhz Azərbaycan, Belorus və Ermənistanla münasibətlərin imkanları dəyərləndiriləcək”**

**Y.Hacıyevanın fikrincə, Riqa zirvəsinin ən təəccüblü məqamı Belorusla bağlıdır. Belorusun sadələşdirilmiş viza məkanına daxil edilməsi gözlənilir:** “Sammitin gündəliyinə bu haqda sazişin paraflanması salınıb. Diqqətlə baxsaq, görəcəyik ki, son iki ildə Belorus Avropa Birliyinin diqqəti mərkəzindədir. AB-nin qonşuluq siyasəti proqramlarını həyata keçirən qurumları Belorusun siyasi qurumları, vətəndaş cəmiyyəti institutları, eləcə də gənclər təşkilatları ilə təmaslarını artırıb. Böyük ehtimalla yaxın illərdə Qərbin bu açılımı Belorus cəmiyyətində ciddi inkişafa səbəb olacaq. Rəsmi Minskin Avropa Birliyi ilə qonşuluq siyasəti haqqında mövqeyini ölkənin NATO və AB-dəki nümayəndəsi Yevdiçenko açıqlayıb. Cənab Yevdiçenko deyib ki, ölkəsinin Avropa Birliyi ilə heç bir problemi yoxdur, Qərblə gərgin münasibətlərin mülayimləşməsi rəsmi Minskin maraqlarına uyğundur”.

**Azərbaycana gəlincə, “125-lər”in təmsilçisi deyir ki, Riqa sammitindən gözləntilər çoxdur:** “Azərbaycanın təmsilçiliyi ciddi və yüksək səviyyədə olacaq. Riqa sammitinə hazırlıq çərçivəsində bu il aprelin 15-də Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov Riqada olub. Azərbaycan və AB münasibətlərin müzakirəsi zamanı ölkəmizin sammitə təmsilçilik fəaliyyət planını təqdim edib, Şərq Tərəfdaşlıq Proqramının regional təhlükəsizlik baxımından üstünlükləri, Güney Qafqazın digər məsələləri, problemlər haqqında müzakirələr aparılıb. Ümumiyyətlə, AB və Azərbaycan arasında münasibətlərin hansı səviyyədə davam edəcəyi ilə bağlı narahatlıqlar var. Avropa Birliyinin təklif etdiyi assosiativ üzvlükdən imtina edən rəsmi Bakı daha çox Strateji Modernləşmə Proqramları üzrə əməkdaşlıqda maraqlıdır. Strateji Modernləşmə Proqramı bir sıra daxili islahatları nəzərdə tutur. AB iqtisadi və təhlükəsizlik sahəsində güvənli tərəfdaşı olan rəsmi Bakının Strateji Modernləşmə Proqramı çərçivəsində vacib olan islahatlar aparmayacağından narahatdır”.

**Y.Hacıyeva düşünür ki, sammitdə Azərbaycanda media, insan haqları, demokratiya və vətəndaş cəmiyyətinin durumu ilə bağlı müzakirələr olsa da konkret addımların atılacağı gözlənilən deyil:** “Bu həm də keçən il vətəndaş cəmiyyəti üzvlərinin total həbsindən sonra Riqa sammitində təmsilçiliyin zəif olacağı ilə bağlıdır. Yüksək səviyyədə baş tutan siyasi müzakirələrdə isə hər zamankı kimi yalnız rəsmi Bakı təmsil olunacaq - ölkə daxilindəki siyasi qrupların heç biri sammitə dəvət edilməyib”.

**“İstənilən halda Avropa Birliyi ilə Azərbaycan hökuməti arasında Assosiasiya Sazişi və Dərin və Hərtərəfli Azad Ticarət Razılaşmasının (DCFTA) imzalanacağı gözlənilmir”**

❑ **Aygün MURADXANLI**

# Siyasətdəkilər kimləri və niyə söyür



**Rauf ARİFOĞLU**

“Allahı inkar və təhqir edənlərin həyatda və virtualda dostluğumuzda qalmaq şansları var; qalırlar da! Fəqət Liderə dəydinsə, onu söydünsə, bitdin... Vətən xainisən”

## Bir mesajım var, dostlar!!!

**Allahımızı, Dinimizi, İnancımızı, Peyğəmbərimizi ən pis formada söyən, ikidə-bir təhqir edən soydaşlarımızla dostluğa davam, siyasi liderimizi söyən, tənqid edən illərin dostlarına savaş elanı...**

Biz beləyik. Birincilərin Allah, Peyğəmbər və din söyüşlərini uzağı like etmirik; sonrakı statuslarına isə öygülər yazırıq; fəqət İkincilərə qarşı sərih cəbhə açır, xain elan edir, kampaniya başladır və “bunları siləlim” deyirik. Türkiyədə, istənilən müsəlman toplumunda, hətta Avropada belə Allahı, dini, imanı, peyğəmbərləri bunca aşağılayanlara kimsə salam verməz, bu allahsızlara total ictimai qınaq olar; hətta bəzən cəza da kəsilər...

Dünyanın hər yerində ateistlər bizimkilərdən çox abırlıdırlar; onlar da milyonların, çevrəsindəkilərin hisslərini bu qədər kobudluqla tapdamazlar; tanınan simalarsa bunu heç etməzlər; çünki bitərlər. Avropadakı tək-tük ateist hökumət və dövlət başçıları topluma aid dəyərləri təhqir etməzlər, inanclılara saygı göstərərlər.

Bizdə isə bir başqadır. Ateistlərimiz üz çırırlar. Sənin sosial şəbəkədəki səhifənə girib, dəyərlərini, inanc sistemini aşağılayırlar; dini bayramlarda təhqirlər yağdırırlar. Ötəyə gedənlər də olur...

Amma biz İKİ PİSdən Birincinin üstündən keçərik... Allahı inkar və təhqir edənlərin həyatda və virtualda dostluğumuzda qalmaq şansları var; qalırlar da! Fəqət Liderə dəydinsə, onu söydünsə, bitdin... Vətən xainisən. Satqınsan, mütləq və mütləq, pul almısan. Bəs Allahı, Peyğəmbəri söyənlər haradansa pul alırmı? Belə ittiham səsləndirdikmi...

İkisi də pis işdir, murdardır. İnsanların özlərinə dəyər bildiklərinə söymək olmaz. Bunun alternativi də var - iqnor, ya da siyasi tənqid. Söyməməliyik! Lakin anlamaq lazımdır ki, İnanclı üçün Peyğəmbər Əfəndimiz Liderdən də, Atadan da ötədir!

Görün indi biz nələrə qatlanırıq...

Allah bütün xəstələri hidayət etsin, insanların ürəyinə şəfqət və səmimiyyət versin. Allah Liderlərini söyənləri eyni cür söyənlərin qəlbinə bir azca Allah, Din və Peyğəmbər təəssübü də salsın. Liderlərə də adil hakimlik arzu edirəm. Onları tənqid edənləri və böyənməyənləri söyməyə, hədəfə götürməyə, illər və aylarla mənəvi terror etməyə imkan verməsinlər. Bir balaca da riyazi hesablama aparsınlar. Bəzən nadanca söyüş, təhqir mətni yazanlar son 20 ildə, bu nəticəsiz və ağır dönəmdə özlərini necə aparıblar, başqa hansı mətnləri yazıblar... Quranda göstərilir ki, yaxşılıq edənlərin əməllərinin qarşılığı pislik edənlərin əməllərinin cəzasından daha yüksək dəyərləndiriləcək.

Axirətin bu ədalətli modelini siyasətə tətbiq etmək olmazmı? O qədər sadələşər və gözəlləşər ki, siyasi həyat. Şəxsən mən o cür yaşayıram. 3 dəfə mənə yaxşılıq etmiş, uğrumda fədakarlıq yapmış birisi ən azı 30 dəfə pislik etməyincə, cavabını vermərəm. 30 dəfə yaxşılıq etmiş birisinin isə nə qədər pislik etsə də, məni özünə düşmən qazanma şansı yoxdu...

2003-cü il hadisələrinə görə Bayıl həbsxanasında yatarkən “suç ortaqları”mdan biri üzümə bir irad söylədi: “Siz tovuzlularda kin yoxdu ki... Niyə filankəsi silib atmırsan...”

...Səbəbini yuxarıda yazdım. Ona görə silib atmıram ki, qarşıdakı hələ bu nəticəyə nail olmayıb, limiti var...

Bu baxımdan, siyasətdəki liderlər hər gün bağışlayanlardan olmaq məcburiyyətində.

Bir şeyi də unutmayalım! Lider dediyinin “benzini” qələbədir, nəticədir... Onu verməsinsə, verə bilmədinsə; fərqi yoxdur hansı səbəbdən; yerində sayacaqsan, idarə etdiyin “nəqliyyat vasitəsi”nə minənlər düşüb, oranı tərk edəcəklər; gələnlər də olacaq; lakin bu gerçəyi dəyişməyəcək; çünki o gələnlər də kiminsə “nəqliyyat vasitəsindən” düşənlərdi...

Bir zəhmət, missiyanızı unutmayın! Bu siyasət deyilən səhnədəki aktyorların hamısı konkret maraqların ifadəçiləridir. Səndən yana olanlara bir şeylər verə bilmirsənsə, onlardan da nələrsə gözləməyə haqqın yox...

Bir arzumuz da var: duadı əslində; bunu hər zaman özümüz üçün də söyləyirik. “Allah Azərbaycanın bütün siyasi liderlərini və fəallarını, içi də biz qarışıq, gerçək inanclılardan, müsəlmanlardan olmaq qərar versin”.

Münafiqlik də ateistlik qədər DƏRGAHda, hər iki dünyada qınanan əməldir.

O zaman çox şeylər düzələcək! O zaman fərq yaranacaq. Və insanlar da kimlərin hansı fundamental dəyərləri təmsil etdiklərini anlayacaqlar. İndilikdə isə ortada dəyər deyilən bir şey qalmayıb.

İndi ortada olan böyük bir dövrün qapanış törənidir. Hamı qışqırır, hamı söyür. Kimi hökuməti, kimi bir-birini. Çünki hamı yekunlardan narazıdır.

# “Bu, ailəmizə qarşı repressiyadır”

## Birlikdə 12 il yarım həbs cəzası alan Kərimli qardaşlarının anası: “Ən böyük arzum övladlarımı şərləyənləri dəmir barmaqlılar arxasında görməkdir”



## Raqif Kərimli: “Olmayan cinayətə görə cəza verdilər”

**Müsavat başqanının həbsdəki müavini Fərəc Kərimlinin və qardaşı Sirac Kərimli məhkəməsi yekunlaşdı. Üst-üstə 12 il 6 ay həbs cəzası alan Kərimli qardaşlarının valideynləri hələ də ağır hökmün acısını çəkirlər.**

*Təbii ki, bir ailənin iki övladının eyni vaxtda ağır ittihamlarla həbsə atılması, yüksək illərlə hökm oxunması valideyn üçün ən çətin andır. Məhkəmə qərarından sonra Kərimli ailəsinin son durumu ilə tanış olmaq üçün yaşadıqları yataqxanaya yollandıq. Qapını üzümüzə ilk açan Sirac Kərimlinin azyaşlı övladları - Əminə və Atilla oldu. Onların dilindən səslənən “atam türmədədir” sözünü eşitmək çox ağır idi...*

*İlk olaraq, müsavatçı qardaşların atası Raqif Kərimli ilə söhbət etdik.*

- Bu bir repressiyadır. Bizi tutduğumuz yoldan çəkindirmək, sındırmaq üçün olan həbsdir. Verilən cəza da birbaşa bununla bağlıdır. Əslində olmayan cinayətə verilən cəzadır. Doğrudur, çox siyasi həbslər olub. Görünür, indi də növbə bizim imiş. Tutduğun yolu bilirsənsə, belə hallarla üzləşəcəyinə də hazır olmalısan. Uzun zaman Müsavatın Laçın təşkilatının sədri olmuşam. Hakimiyyət müxalifətdə olanlara, xüsusilə müsavatçılara daim təzyiq göstərib. Özüm də dəfələrlə inzibati həbs cəzaları almışam, iki dəfə işdən çıxarılmışam. İndiki zərbə çox ağır oldu. Bu təzyiq təkcə bizə yox, həm də Müsavata olan bir zərbədir. Belə hesab edirəm.

***- Amma heç şübhəsiz ki, ağırdır iki övladın həbsdə olması...***

- Qərarın ədalətli olacağını gözləmək olmazdı. Azərbaycanda heç bir məhkəmə ədalətli qərar qüdrətinə malik deyil. Siyasi işlərdə bu mümkün deyil. Evdə deyirəm ki, indi prokuror öz-özünə qürrələnir, 12 il iş istəyə bilərdim, amma 8 il istədim, yaxud 7 il yarım. Yəqin ki, onu dəyərləndirməyimizi, hörmət etməyimizi düşünür. Hakim də yəqin belə fikirləşir. Bəlkə də özlərini haqlı sayırlar. Amma ədalət deyil. Bəlkə də qəlblərində müəyyən insaf var. Ancaq inanmıram. Çünki tapşırıq əsasında qərar verirlər. Məhkəmədən sonraya özümü və ailəmi hazırlamışdım. Dözmək lazımdır. Çətinliyə düşmüsənsə, tab gətirmək şərtdir.

***- Azadlığa buraxılacaqlarına gözləntiləriniz qalıbmı?***

- Gözləntimiz yalnız odur ki, Azərbaycanda siyasi islahatlar keçirilsin. Hakimiyyət dəyişikliyini heç demirəm. Ən əsası, məhkəmə müstəqilliyi olmalıdır. Kimdənsə gözləmirəm ki, mənə rəhm eləsin. Əfv söhbətləri var. Bu sözün mənası var. Cinayət edəni əfv edərlər. Məni şərlə, sonra de ki, səni əfv edirəm. Qatı dindar olmasam da, Allaha inanıram. Allahın da divanı var.

***- Bəs övladlarınız əfvə düşəcəyi halda?***

- Övladlarım əfvə salınsa da, salınmasa da, mənim üçün fərqi yoxdur. Özləri bilərlər. Heç kimə demərəm ki, məni və övladlarımı əfv et. Narkotik adı ilə bizi şərləsinlər, sonra əfv gözləyim?

***- Əfv yazmaq üçün təzyiqlər edilirmi?***

- Məhkəmədən sonra müəyyən təzyiqlər olur. Fərəc və Sirac bir yerdə qalırdılar. Bizə mənəvi və maddi cəhətdən xeyli kömək idi. Amma indi ayırdılar. Ən böyük təzyiq bunu hesab edirəm.

***- İki övladdan hansının yoxluğu ailədə daha çox hiss olunur?***

- Siracın övladlarının danışıqlarını eşitsəniz, hər şey aydın olar. Artıq sərbəst danışa bilirlər. Çox sarsıdıcıdır. Çalışıram ki, hiss olunmasın. Son vaxtlara qədər uşaqlara deyirdik ki, atanız işdədir. Onlar da telefonla danışanda, pul, oyuncaq istəyirdilər. Sonuncu görüşü şüşə arxasından veriblər. Uşaqlar bərk ağlayıblar. Evə gələndən sonra Atilla bir şəkil çəkib. Şəkildə şüşə arxasında danışan ata və anasını əks etdirib. İndidən təfəkkürlərində belə şeylər yaranıb. Sözsüz ki, mənə çox ağırdır. Səhhətimdə problemlər var. Bir iş olanda uşaqları göndərirdim. Maddi və mənəvi dəstək olurdular. İndi hamısı hiss olunur. 30 yaşlarına çatsalar da, hərbi xidmətdən başqa heç vaxt ailədən ayrı olmamışdılar. Təsəvvür edin ki, 1 ilə yaxındır ayrılıq mövcuddur.

***- Bu 10 ay necə keçdi?***

- Çətinliklərlə dolu aylar oldu. Desəm ki, sıxıntılarım olmayıb, yalan olar. Hər cəhətdən problemlər oldu. Dost-tanış, əqidədaşlar və qohumlar çox dayaq oldular. Tək olsaydıq, çətin olardı. Hamıya təşəkkür edirəm.

***- Verilən dəstəkdən razı qaldınız?***

- Qohumlarımdan çox razıyam. Xüsusilə Laçın camaatından. “Yeni Müsavat” qəzetindən həqiqətən çox razıyam. Vaxtaşırı daim bizi diqqətdə saxlayır. Eləcə də digər mətbuat orqanları. Meydan.tv, AzadlıqRadiosu, “Azadlıq” qəzeti, “Amerikanın səsi” radiosu və unutduğum digərləri. Çox maraqlanıblar. Dəstək olan bütün mətbuat orqanları və insanlara təşəkkür edirəm. Uşaqların həbsini gündəmdə saxlamağın böyük əhəmiyyəti var. Hesab edirik ki, tək deyilik. Partiyadan da çox razıyam. Başqan və İsa Qəmbər başda olmaqla, daim yanımızda oldular, bütün məhkəmələrdə iştirak etdilər. Tural Abbaslı və gənclər təşkilatı məhkəmədə oldular, dəstəklərini əsirgəmədilər. Başxanım müəllimə Tural Abbaslı həbsdə olarkən keçirdiyi hissləri həyat yoldaşıma daim deyərək, mənəvi dəstək olur. Kəmalə Bəhlulova bütün məhkəmələrdə iştirak etdi. Böyük əksəriyyətdən razı qaldım. Qalanlarından razı olmasam da, narazı da deyiləm. Öz yollarını seçdilər.

***- Yeri gəlmişkən, övladlarınız həbs olunarkən bütöv Müsavat var idi. Amma indi bunu söyləmək çox çətindir. Nə düşünürsünüz?***

- Övladlarımın həbsi Müsavatla bağlıdır. Fərəc “Basta”, “İstefa” səhifələrinin və Müsavat Partiyasının musavat.org saytının admini idi. Partiya əleyhinə olan yazıların qarşısını alırdı. Oğlumun həbsi ilə partiya əleyhinə olanların yolu açıldı. Doğrudur, əvvəl partiyada bütövlük var idi. İstəməzdim belə olsun. Hamını həbs etmək olmur. Amma görünür, Müsavatın daxilində insanlar ələ almağı bacardılar. Müsavatda çoxlu “satqınlar” tapa bildilər. Nərgizin ölümü ilə bağlı Tofiq bəyi bir həftəlik yasa buraxdılar. Həmin müddətdə facebookda yazdılar ki, Tofiq bəyi alternativsiz namizəd verək və başqan seçək. İnsanın ağır günündə bu sözləri yazan insanlardan nə gözləmək olar? Sadəcə, Müsavata zərbə vurmaq üçün tapşırıq alınıb. Bir müddət əvvəl məndə belə məlumat var idi. Mənə demişdilər ki, Qubad İbadoğlu başqan seçilməsə, Müsavat dağılacaq. Göründüyü kimi, bunlar gerçək oldu. İsa bəyə ağıllarına gələni yazırlar. Bu insan 23 il partiyanın bütövlüyünü qoruyub. Lider şəxslər partiyada çox idi. Qubad bəyə əvvəllər böyük simpatiyam var idi. İndinin özündə də insan kimi hörmət edirəm. Daim mövqeyim olub. Kimi istəmişəm, ona səs vermişəm. Müsavatın xeyrinədir partiyanı belə insanlardan təmizləmək. Sürüşkən adamların partiyada olmasından olmamaları yaxşıdır. Qurultayın qərarlarına hörmət edirəm. Çıxarılanlar müsavatçı deyillər. Sakit partiyadan getmirsənsə, demək, danışdırırlar. Vurğun Əyyubun xətrini çox istəmişəm. Bütün seçkilərdə ona səs vermişəm. Şəxsi narazılıqla partiyanı bu hala salmaq olmaz. Görünür, onun da zəif yerini tapıb, özlərindən asılı vəziyyətə salıblar...

*Kərimli qardaşlarının anası Xaliqə Kərimli isə bunları dedi:*

- Oğlanlarımın həbsi mənə ağır təsir etdi. Siraca hökm oxunanda bir anlığa özümü unutdum. Oğlumun üzünə duranlar, prokuror və hakim gözümdə çox cılız görünürdülər. Bu gün mənə desələr ki, sənin canını alırıq, əvəzində övladlarını şərləyənləri onların yerinə salacağıq. Həmin dəqiqə razılaşaram. Ən böyük arzum övladlarımı şərləyənləri dəmir barmaqlılar arxasında görməkdir. Oğlanlarım yadımdan bir an da çıxmır. Xəyalımda onlarla danışıram. Siracın uşaqları bu dəqiqə bilirlər ki, siz nəyə görə gəlmisiniz. Çox həssas uşaqlardır. Hər gün stress içərisindəyəm. Bütün günü hər cəhətdən problemlər yaşamaq çox ağırdır. Məhkəmədə keçirdiyim hisslər hər an məni izləyir. İki oğlumu heç nədən şərlədilər. Fərəc demişkən, saxta qurum da onu təsdiq etdi. Məhkəmələr sifarişlə qərar verən qurumdur. Mən onlardan ədalət gözləmirdim. Heç nədən oğlumu içəri salanlardan ədalət gözləmək olmaz. Hələ çox iş gözləyirdim... Qohumlarımın sayəsində yaşayıram. Deyirlər ki, qadınlar dözümlü olur. Amma görürəm, kişilər daha dözümlü olurmuş. Həmişə bir ailə olmuşuq. Müsavatçı gənclərdən çox razıyam. Fərəcdən çox Siraca dəstək olurdular. Onların hər birini övladlarımın gözündə görürəm.

***- Ana olaraq, gözləntiləriniz nədən ibarətdir?***

- Hakimiyyətdən heç nə gözləmirəm. Övladlarımı azad edəcəyini düşünmürəm. İnamım qalmayıb. Ümidimi Allaha bağlamışam. Sirac tezliklə ailəsinə qovuşsun, Fərəc mübarizəsini davam etdirsin. Açıq görüşdə Sirac uşaqlara ətrafdakı binaları göstərərək dedi ki, bu binaları biz tikirik, qurtaran kimi gələcəm. Uşaqlar inandı. Sonra cibimdən səhvən telefon çıxdı. Başqa məqsəd yox idi. Görüşü kəsdilər. İcazə verilən zaman şüşə arxasında görüş oldu. Xoş olmayan mənzərə oldu. Uşaqlar bildilər ki, ataları həbsdədir. İnanıram ki, Allah bunları bağışlamayacaq. Sadəcə möcüzə olacağına inanıram. Bu həbsin arxasında duranların qəlbinə Allah xofu gələcəyinə ümidim var. Siracın körpə balaları var. Hər ikisindən ötrü əzab çəkirəm. Siracın uşaqları atalarını çox istəyirlər. Dəfələrlə atalarını məndən soruşublar. Atilla artıq deyir ki, “atam ”qəfəs"dədir. Uşaqlar polisə nifrət edirlər. Allah heç kimə yaşadıqlarımızı yaşatmasın.

***- Fərəc və Siracın əfvə düşəcəklərinə inanırsız?***

- Səmimi desəm, inanmıram. Əl çantamı oğurladılar. Nə məqsədlə aparırdınız? İşi ağırlaşdırmaq üçün? Qadının çantasını götürmək səviyyələri olan insanlardır. Sözlərim artıq bitib.

Xatırladaq ki, Kərimli qardaşları ötən ilin iyulunda həbs ediliblər. Hər iki qardaşa qarşı narkotik ittihamı irəli sürülüb. Fərəc Kərimli 6 il yarım, Sirac Kərimli isə 6 il müddətinə azadlıqdan məhrum edilib.

**❑ Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**







# "Azərbaycan Ermənistanla "soyuq müharibə"ni udub"

## Tanınmış rusiyalı ekspertlər qaynar müharibə variantında da işğalçı ölkəyə labüd məğlubiyyət vəd edirlər; Bakı status-kvoya sonsuzadək dözməyəcək...

**Dağlıq Qarabağ məsələsində durğunluq dövrünün davam etməsi, uzun müddətdən bəri münaqişə tərəfləri arasında ən yüksək səviyyədə təmasların olmaması yeni müharibə risklərini artırmaqdadır. Savaş ehtimalları barədə son vaxtlar vasitəçi dövlətlərin, o sırada Rusiya rəsmilərinin dilindən tez-tez narahatedici, eyni zamanda xəbərdarlıq xarakterli bəyanatlar səslənməkdədir. Axırıncı dəfə analoji açıqlama ilə Rusiyanın xarici işlər naziri Sergey Lavrov çıxış etmiş, münaqişə tərəflərinə çağırış eləmişdi. Bu çağırışlar şübhə yox ki, münaqişə zonasında operativ vəziyyətin təhlükəli həddə olmasının dərkindən qaynaqlanır. Bəs atəşkəsin yeni qaynar fazaya keçməsi nə dərəcədə mümkündür?**

*****

**Rusiya rəsmilərinin, nazir Sergey Lavrovun Qarabağda yeni hərbi əməliyyatlarla bağlı xəbərdarlıqlarını rusdilli vesti-az-a şərh edən nüfuzlu siyasi analitik Oleq Kuznetsov güman etmir ki, müharibə tezliklə başlaya bilər:** "Məsələ ondadır ki, Azərbaycan artıq Ermənistana qarşı "soyuq müharibə"ni udub - bu ölkəni özünün iştirakçı olduğu bütün iqtisadi-energetik xarakterli regional və beynəlxalq layihələrdən kənarda saxlamaqla. Bu siyasət öz bəhrəsini verir. Ermənistan iqtisadiyyatı indiyədək tərəfdaşlarından və donorlarından aldığı bütün yardımları artıq xərcləyib və taqətdən düşmə həddinə gəlib çatıb. İqtisadi böhran bu prosesin templərini artırıb. Daha bazarın heç bir iştirakçısı Ermənistan kimi əlverişsiz məkana pul qoymaq istəmir. Əgər bunu mən başa düşürəmsə, Kremldə qat-qat dəqiq anlayırlar. Ona görə də Rusiya tərəfləri tezliklə sülh anlaşması əldə etməyə çağırır".

**Ekspertin fikrincə, Moskvanın müharibə xəbərdarlıqları bu xüsusda ilk növbədə qətiyyən Azərbaycana deyil, Ermənistan rəhbərliyinə ünvanlanıb:** "Xəbərdarlıqların sətiraltı anlamı da belədir: "Qarabağdan könüllü çıxıb gedin, yoxsa bizim sponsor köməyimiz və dəstəyimiz tezliklə kəsiləcək. Avrasiya iqtisadi məkanı Ermənistanı saxlamağa hazırdır, ancaq bu, o demək deyil ki, o, "kvazidövlət Arsax"ı da bəsləyəcək". Hələ ki, bu çağırışlar səhradakı səs kimi təsirsiz qalıb. Lakin bu, qətiyyən o anlama gəlməməlidir ki, belə vəziyyət sonsuza qədər davam edəcək".

*****

**Analitik bununla belə, Dağlıq Qarabağın erməni əhalisinin də marağını nəzərə almağın tərəfdarıdır:** "Şübhəsiz ki, heç kim Dağlıq Qarabağın erməni əhalisinin vətəndaş hüquqlarını inkar eləmir. Ancaq Azərbaycanın ərazi bütövlüyü prinsipi də tam həcmdə reallaşmalıdır. Tərəflərin maraqlarının uzlaşması dinc yolla həyata keçirilməli, lakin uzlaşmanın baza məqamlarını hələ danışıqlara kimi müəyyənləşdirmək lazımdır. Bunsuz sülh prosesi çətin ki, mümkün olsun".

**Yeni müharibənin mümkün sonuclarına gəlincə, rusiyalı təhlilçi "Erməni ordusu iflasa məhkumdur və heç bir əsgər ruhu və onların çay olacaq qanları Azərbaycandan hərbi-texniki geriliyi kompensasiya edə bilməz" deyib:** "Ukraynanın cənubunda aparılan və antiterror əməliyyatı adlandırılan əməliyyat çox gözəl şəkildə göstərdi ki, Ermənistanın da hazırda anbarı olduğu sovet dönəminin tank metallolomu nəyə yarayır. Odur ki, Ermənistanın müdafiə naziri Sergey Ohanyan indidən məğlubiyyətin perspektivini gördüyü üçün öz bəyanatları ilə indidən nə vaxtsa məğlubiyyətə görə günahı öz üzərindən atmaq üçün zəmin yaratmağa çalışır".

**Xatırladaq ki, Ohanyan mətbuata müsahibəsində atəşkəsin 21 illiyi ilə bağlı demişdi:** "Biz Azərbaycanın aldığı silah-sursat haqda məlumatlıyıq. Cavabında biz yeni silahlar, yüksək mənəvi ruh, şəxsi hazırlıqlarla balansı saxlayırıq. Ermənistan silahlı qüvvələri qarşıya qoyulan vəzifələri ləyaqətlə yerini yetirir. Biz eyni zamanda problemləri də gizlətmirik və onların həllinə çalışırıq".

*****

**Öz növbəsində Rusiyanın tanınmış politoloqu, Moskva Karnegi Mərkəzinin eksperti Aleksey Malaşenko bildirib ki, Azərbaycanla Ermənistan arasında münaqişənin 20 ildən çox davam etməsi Dağlıq Qarabağ münaqişəsinin sülh yolu həllinin olmadığını göstərir (APA):** "Atəşkəsin elan olunmasından 21 il keçib. Bu müddətdə atəşkəs hallarının pozulması saysız-hesabsızdır. Nəticədə tərəflərdən çoxlu sayda hərbçi və mülki insan itkiləri olub. Dağlıq Qarabağ heç bir zaman Ermənistanın tərkib hissəsi olmayacaq".

**Rusiyalı siyasi ekspertin fikrincə, bütün dünya Azərbaycanın güclü orduya sahib olduğunu bilir:** "Amma müharibə meydanında qələbə çalmağa heç kimə icazə verməyəcəklər. Çünki bu, heç kimə lazım deyil. Nəzərə alsaq ki, hazırda dünyada ərazi bütövlüyü və suverenitet kimi problemlər mövcuddur. Bu, Ukraynada, Cənubi Qafqazda və Yaxın Şərqdə böyük problem olaraq qalır. Hamısında ərazi bütövlüyü və suverenitet problemi əsasdır".

Qarabağ münaqişəsinin həlli ilə məşğul olan Minsk Qrupunun fəaliyyətini şərh edən Malaşenko əlavə edib ki, vasitəçilərin prinsipi Dağlıq Qarabağda yeni müharibənin baş verməməsi üçün danışıqların davam etdirilməsinə səy göstərməkdi. "Nə qədər çox danışıqlar, bir o qədər az müharibə təhlükəsi..." Bu, ATƏT-in Minsk Qrupunun fəaliyyətinin əsas devizidir" - əlavə edib.

*****

**Digər tanınmış rusiyalı siyasi ekspert Konstantin Kalaşova görə, Azərbaycanın öz döyüş qabiliyyətini nümayiş etdirməsi Ermənistana güclü siqnaldır:** "Hansı ki, əvvəllər bunu İrəvan ciddiyə almırdı. Lakin bu, həm də Bakının Dağlıq Qarabağ və ətraf 7 rayonun qaytarılması məsələsində aktiv hərəkətlər gözlədiyi Rusiya ilə danışıqların predmetidir. Rusiya bunu başa düşür. Çətin ki, situasiya genişmiqyaslı müharibəyə gedib çıxsın. Hələ ki dinc nizamlama imkanları qalır. Lavrov da bu barədə deyib. Problem həllini tapmalıdır".

**Lakin ekspert hesab edir ki, status-kvo uzun müddət belə qala da bilməz:** "Perspektivdə Azərbaycan torpaqlarının heç olmasa, bir hissəsinin qaytarılması kompromis rejimində həllini tapmasa, - əhali isə bunu gözləyəcək və Bakıdan qətiyyətli addımlar tələb edəcək - o zaman Azərbaycanın hərbi təzyiqlərİ güclənəcək. Bu isə Moskvanı uğursuz duruma salacaq. Çünki bir yanda müttəfiq, o biri yanda isə tərəfdaşdır. Bir yanda Avrasiya İqtisada Birliyi, o biri yanda silah satışı üçün perspektivli bazar və həm də təkcə bu yox. Azərbaycan həmçinin erməni elitası arasında parçalanmaya, Ermənistanda daxili çətinliklərin kəskinləşməsinə ümid edir. Hansısa məqamda situasiya spontan şəkildə lokal qarşıdurmalar çərçivəsindən çıxa, müharibə təzədən qızışa bilər. Bunu isə heç kim istəmir".

**Politoloqun sözlərinə görə, Moskva həm Ermənistanı, həm də Azərbaycanı öz təsir zonasında saxlamaq istəyir:** "Hələ ki bu, onda pis alınmır. Fəqət, köhnə paradiqma dövrü artıq bitib. Belə görünür, ATƏT-in Minsk Qrupu da indiki formasında problemi çözməyə qadir deyil. O ayrı məsələ ki, Moskva hələ ki, Bakının münaqişəni hərbi yolla həll variantına gedəcəyinə inanmır. O üzdən Azərbaycana silah satışı problem deyil - Azərbaycan ciddi alıcıdır. Amma əgər divardan tüfəng asılıbsa, o gec-tez atəş açacaq. Rusiya üçün daha yaxşı olardı ki, problemlər dinc yolla və onun vasitəçiliyi ilə yoluna qoyulsun. Bunun üçün də tərəflərin ona etimadının olması vacibdir".

*****

Bu arada 21 il öncəki atəşkəs protokolu barədə erməni mediası şok etiraf edib (anspress). Ermənistanın "Hayele" qəzetinin məqaləsində atəşkəs sazişindən Azərbaycanın maksimum yararlandığı qeyd edilir.

**"Kövrək atəşkəs" başlıqlı məqalədə deyilir ki, 1994-cü ildə hərbi baxımdan Ermənistana uduzan Azərbaycan 21 il sonra çox güclənib:** "Azərbaycanın hərbi büdcəsi dəfələrlə artırıb. Azərbaycan hərbi potensialına güvənərək Qarabağ münaqişəsini istənilən vaxt öz xeyrinə həll edə bilər. Rəsmi Bakının dediyi kimi, Cənubi Qafqazın ən güclü ordusu Azərbaycana məxsusdur".

Qəzet son vaxtlar cəbhə xəttində baş verənlərin təhlükəli məcraya yönəldiyindən narahatlıq ifadə edərək bildirib ki, Azərbaycan ordusunun güclənməsi fonunda baş verən təxribatlarda indi ermənilər uduzmaqdadırlar. Erməni nəşri Azərbaycan ordusunun güclənməsində Rusiyanın satdığı silahların önəmli rol oynadığını qeyd edərək Kremlin strateji müttəfiqinə *(Ermənistana - red.)* xəyanət etdiyini də bildirir.





YENİ MÜSAVAT
N 103 (6131) 14 may 2015



# OPEK neftlə bağlı razılığa gələ bilmir

## Ekspertlərin fikrincə, hasilatı nisbətən azaltmaq mümkün olsaydı, qiymətlər sabitləşə bilərdi, "qara qızıl"ın ucuzlaşmasından siyasi mənada çox divident götürənlər də mənfi təsirə məruz qalır...

**Neft ixrac edən ölkələrin karteli OPEK bu təşkilata daxil olmayan hasilatçı ölkələrlə neft hasilatını birlikdə azaltmaq barədə razılığa gələ bilməyib. "Bloomberg"in xəbərinə görə, OPEK və kartelə daxil olmayan ölkələrin nümayəndələri arasında görüş mayın 12-də Vyanada olub.**

Görüşün üç iştirakçısı "Bloomberg"ə bildirib ki, tərəflər hasilatı birgə azaltmaq barədə razılıq əldə edə bilməyiblər. Görüşə OPEK-ə daxil olmayan ölkələrdən Rusiya, Braziliya, Meksika və Azərbaycan nümayəndələri qatılıblar. OPEK iyunun 5-də Vyanada keçiriləcək toplantısında neft bazarındakı vəziyyəti müzakirə edəcək və ola bilsin hasilatın azaldılması məsələsinə baxılacaq. Lakin kartel hələlik hasilatı azaltmağa meyl etmir, OPEK-ə daxil olmayan ölkələrin də belə addım atmasını istəyir. Öz növbəsində əsas neft ixracatçısı olan Səudiyyə Ərəbistanı aprel ayında hasilatı rekord ölçüdə artırıb və sutkada 10,308 milyon barelə çatdırıb. Bu, Səudiyyə Ərəbistanının qiymətləri qaldırmaq üçün hasilatı azaltmaq fikrində olmadığını göstərir. Səudiyyə Ərəbistanı hasilatı azaldaraq bazardakı mövqelərini əldən vermək istəmir və neftin qiymətinin kəskin ucuzlaşmasına baxmayaraq, hasilatı azaltmır. (virtualaz.org)

Bununla belə, son hərraclarda "Brent" markalı neftin qiyməti 65 dollardan 67 dollara qalxıb. Bu, ötən beş ay ərzində ilk belə yüksək qiymətdir. Ekspertlər qeyd ediblər ki, qiymətlərin belə sıçramasının səbəbi ABŞ-da neft ehtiyatlarının ötən ilin noyabrından bəri ilk dəfə azalmasıdır.

**Qeyd edək ki, neftin qiyməti ilə bağlı verilən şərhlərdə neft ixrac edən ölkələr tərəfindən yaradılmış OPEK təşkilatının qiymətlərin tənzimlənməsindəki rolu ilə bağlı pessimist fikirlər daha geniş yer tutur. Ekspert Pərviz Heydərov isə bu məsələdə fərqli düşünür. Onun sözlərinə görə, neftin dünya bazar qiymətlərinə OPEK-in nəzarət və təsir etmək imkanları məhduddur:** "Baxmayaraq ki, dünyada əsas neft hasilatçıları və ehtiyatları üzrə tanınan ölkələrin çoxu adıçəkilən qurumun üzvüdürlər, ancaq onlar qiymətləri tənzimləyə bilmirlər. Bunun bir neçə səbəbi var. Əvvəla, neftin əsas alıcıları cəmi bir neçə ölkədir. Məsələn, təkcə ABŞ-ın alıcılıq qabiliyyəti demək olar ki, hər şeyi müəyyən edir. Üstəlik, Çin, o cümlədən, Avropa Birliyi ölkələrini də nəzərə alsaq, hər şey aydın olar. İkincisi, təklifin formalaşmasında da heç də hər şey OPEK-ə daxil olan ölkələrdən asılı deyil. Son illər bu sahədə ABŞ demək olar ki, hər şeyi ələ alıb. Üçüncüsü, qiymətlərin formalaşmasında siyasi amillərin də rolu böyükdür. Bir sözlə, OPEK-dən heç nə asılı deyil. Bunu neftin keçən yaydan bəri ucuzlaşması tendensiyası da göstərdi. 2014-cü il noyabrın 27-də keçirilən iclasda sözügedən təşkilat hasilatı azaltmaq barədə qərar qəbul etsəydi, qiymətlər bu qədər qeyri-qənaətbəxş vəziyyətdə olmazdı. Hazırda qurumun qarşıdan gələn növbəti iclasında da əhəmiyyətli qərar qəbul olunacağı gözlənilmir. Halbuki OPEK-in öz üzvləri də mövcud qiymətlərə görə çoxdan ziyana gedirlər".

**Ekspertin sözlərinə görə, ümumiyyətlə, neftin keçən ilin iyun ayından bu ilin fevralınadək ucuzlaşması prosesi nə qədər "basqı yapıldısa" da qiyməti 40 dollardan aşağı salmaq mümkün olmadığını göstərdi:** "Çünki bugünkü tələblər nöqteyi-nəzərdən xam neft qiymətinin "dib nöqtəsi" maksimum 45-50 dollar arası təşkil edir. Keçən il ərzində ucuzlaşmanın qarşısını almaq məqsədilə istər ayrıca olaraq Səudiyyə Ərəbistanına, istərsə də OPEK-ə nə qədər güclü təzyiqlər göstərildisə, hasilat azaldılmadı. Belə ki, OPEK-in keçən ilin noyabrın 27-də keçirilən iclasında üzv ölkələrdə hasilatı nisbətən azaltmaq qərarına gəlmək mümkün olsa idi, qiymətlər bu ilin fevralından deyil, keçən ilin sonunda sabitləşəcəkdi. Məsələ bundadır ki, ucuzlaşmada "marağı" olan, onun elə bahalaşmasında da əsas səbəbkar olmalı idi. Söhbət ABŞ-dan gedir. Dünyanın bir nömrəli iqtisadi gücünə malik adıçəkilən ölkə "qara qızıl"ın ucuzlaşmasından siyasi mənada nə qədər çox divident götürdüsə də, mənfi təsirlərindən yaxa qurtara bilməzdi. Çünki Birləşmiş Ştatlar nə qədər güclü iqtisadi gücə sahib olsa da qlobal iqtisadiyyatın bir üzvü sayılır. Və neftin ucuzlaşmasının bu ölkə üçün də bir həddi var. İş ondadır ki, hələ fevral ayından bəlli idi ki, ABŞ iqtisadiyyatı böhrandan çıxsa da, bərpa prosesi zəifləyib. Halbuki Barak Obama ölkənin mövcud sosial-iqtisadi və siyasi vəziyyətinə dair illik hesabatla Konqresdə bu ilin yanvarında etdiyi çıxışda böhranın başa çatdığı və iqtisadiyyatın dirçəldiyi, işsizliyin azaldığını demişdi".

**Ekspert qeyd edib ki, bu ilin I rübündə Amerika iqtisadiyyatı yaxşı start götürməyib:** "Bu da təbiidir. Ona görə ki, güclü dollar zəif istehsal və ixrac deməkdir. Dolların dəyəri isə keçən ilin aprel ayından başlayaraq möhkəmlənir. Belə ki, tendensiya Federal Ehtiyatlar Sistemi (FES-red.) kəmiyyət yumşaldılması siyasətini dayandırdığını elan etdikdən dərhal sonra start götürdü.

Yeri gəlmişkən, dolların dəyəri ilə neftin qiyməti arasında isə tərs mütənasiblik mövcuddur: birinci möhkəmləndikdə neft ucuzlaşır, zəiflədikdə isə bahalaşır. Son məlumata əsasən isə, ABŞ-ın xarici ticarət balansı üzrə defisit nə az, nə çox 51,4 milyard dollara yüksələrək 2008-ci ilin oktyabr ayındakı səviyyəyə çatıb. Təkcə bir faktı qeyd etmək yetər ki, ölkənin Ticarət Departamenti tərəfindən mart ayına görə açıqlanan bu rəqəm fevral ayı ilə müqayisədə 43,1 faiz artıq deməkdir. Ticarət balansında bu cür kəsir tempi Birləşmiş Ştatlarda sonuncu dəfə 1996-cı ildə qeydə alınmışdı. Odur ki, sözügedən ölkədə cari ilin I rübü ərzində ümumi daxili məhsul istehsalı üzrə artım səviyyəsi 0,2 faiz təşkil edib. Halbuki, bütövlükdə il üzrə 3 faiz artım proqnozlaşdırılıb. 2014-cü ildə isə 2,2 faiz olmuşdu. Bunun da iki başlıca səbəbi vardır: birincisi, təkrar edirik ki, dolların möhkəmlənməsi, ikincisi də neftin ucuzlaşması səbəbindən enerji şirkətlərinin investisiyaları məhdudlaşdırmasıdır".

❑ **RÖYA**

# Marşrut xətlərinin dəyişdirilməsi sərnişinlərə baha başa gəlir

## Əhmədlidən "beşmərtəbəyə" gəlmək üçün 3 avtobus dəyişmək lazım olur; **İlqar Hüseynli:** "Yaxşı olardı ki, bu dəyişikliklər günün müəyyən saatlarında həyata keçirilsin"



İlqar Hüseynli

**Son günlər Bakıda marşrut xətlərinin dəyişdirilməsi sərnişinlərə əlavə vaxt və pul itkisi hesabına başa gəlir. Belə ki, əksər marşrutların yolu qısaldığından sərnişinlər bir neçə avtobus dəyişməli olurlar. Belə halla "Yeni Müsavat"ın müxbiri də qarşılaşıb.**

Əgər əvvəllər 95 saylı marşrut avtobusu ilə Zığ şossesində yerləşən "Nargilə kafesi" adlanan ərazidən "beşmərtəbə"yə qədər getmək mümkün idisə , indi bunun üçün sərnişinlər 3 marşrut dəyişməlidir. 95 saylı marşrutun son dayanacağı "Xətai" metro stansıyasına qədər qısaldığından sərnişinlər oradan "28 May"a başqa bir marşrutla gəlməli olurlar. Artıq "Xətai" metrosundan şəhər istiqamətində gedən marşrutların da son dayanacağı "28 May" metro stansiyasının yaxınlığıdır. "Beşmərtəbə" istiqamətində getmək istəyənlər buradan da 79 saylı marşrut avtobusuna minməyə məcburdurlar. Belə ki, sərnişin əvvəllər bir avtobusla 20 qəpiyə birbaşa getməli olduğu yolu indi 3 marşrutla getməlidir. Bu isə əlavə 40 qəpik itki və stress deməkdir.

Son günlərdə edilən dəyişikliklərə görə, Hövsandan şəhər istiqamətinə gedən 175 saylı avtobusun xəttinin son dayanacaq məntəqəsi dəyişdirilib. Əvvəllər "28 May"-Hövsan istiqamətində hərəkət edən avtobusun son dayanacağı metronun "Xətai" stansiyasının qarşısı olacaq. Burada da "28 may" metro stansiyasına getmək istəyən sərnişinlər əlavə marşrut dəyişməli və ya metroya üz tutmalı olacaqlar. Bu isə alternativ marşrutlarda sıxlığın yaranmasına gətirib çıxaracaq.

"28 May"- Əhmədli istiqamətində hərəkət edən 46 saylı avtobusun da marşrutunda dəyişiklik olub. Avtobuslara "Xətai" istiqamətindən keçmək qadağan olunub.

32 saylı sərnişin avtobusunun son dayanacağı isə metronun "28 May" stansiyasının qarşısından "Xətai" stansiyasının qarşısına köçürülüb.

Məlumat üçün qeyd edək ki, 70 , 124 saylı avtobusun hərəkət istiqaməti dəyişdirilib, 14 nömrəli marşrut 24 saylı xətt avtobusu ilə əvəz olunub. 1, 20, 188, 53, 90, 83 saylı avtobuslar isə ləğv edilib.

86 saylı avtobus 29 saylı marşrutla əvəz olunub. 124 saylı avtobusun marşrutu 20-ci sahəyə qədər uzadılıb. 193 saylı marşrut şəhərin mərkəzindən çıxarılıb. 70 saylı avtobusun istiqaməti dəyişdirilib. 95 və 2 saylı marşrut xəttinin hərəkət istiqaməti "Xətai" metrosuna qədər qısaldılıb.

Onu da vurğulayaq ki, bu dəyişikliklər paytaxt sakinlərini çıxılmaz vəziyyətə salıb. Dəyişiklikdən xəbərdar olmayan insanlar saatlarla dayanacaqlarda marşrut yolu gözləməli olublar. Təəssüf ki, Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi də bu yerdə sərnişinlərə yardımçı olmayıb.

**Nəqliyyat eksperti İlqar Hüseynli də "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, bu dəyişikliklərlə bağlı əhali öncədən məlumatlandırılmalı idi ki, yollarda ajiotaj yaşanmasın:** "Marşrutların istiqamətləri, hansı dayanacaqların dəyişdirilməsi ilə bağlı insanlara informasiya verilməli idi. Yaxşı olardı ki, bu dəyişikliklər günün müəyyən saatlarında həyata keçirilsin. Yəni insanların işə gedib-gəldiyi pik saatlar istisna olmaqla, aralıq vaxtlarda bu dəyişiklikləri tətbiq etmək daha məqsədəuyğun olardı. Azərbaycanda bu kimi proseslər anormal şəkildə həyata keçirilir. Digər tərəfdən, Azərbaycan hökuməti Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzinin yaradılması üçün 100 min manatdan çox vəsait xərcləyib, ancaq bunlardan məqsədyönlü istifadə olunmur. Bildiyiniz kimi, dayanacaqlarda NİİM monitorları quraşdırılıb və burada avtobusların qrafiki ilə bağlı məlumat yerləşdirilib. Yaxşı olardı ki, son dəyişikliklərlə bağlı anonslar da bu monitorlarda verilərdi".

**Ekspert qeyd etdi ki, məsələnin maddi tərəfinə də diqqət yetirmək lazımdır:** "Əgər insan bir marşrut əvəzinə iki, bəzən üç marşrut dəyişməli olursa, bu, ikiqat xərc deməkdir. Bir ailədən 4 nəfərin gündəlik marşrutdan istifadə etdiyini nəzərə alsaq, bu, ailənin yol xərcinin 4 dəfə artması deməkdir. Marşrut avtobuslardan xüsusən azteminatlı insanlar istifadə etdiyindən bu onlar üçün böyük maddi sıxıntı yaradacaq".

**İlqar Hüseynlinin sözlərinə görə, ümumiyyətlə, marşrut xətlərinin bu cür dəyişikliyinə ehtiyac yox idi:** "Dünyanın olimpiya oyunları keçirilən heç bir ölkəsində nəqliyyat infrastrukturunda bizdəki qədər dəyişiklik olmur. Yaxşı olardı ki, Avropa Oyunlarının keçiriləcəyi arenalar regionlarda qurulardı və bu da şəhərdə sıxlığın yaranmasının qarşısını alardı".

Məsələ ilə bağlı Nəqliyyat Nazirliyinin mətbuat xidmətindən mövqe öyrənməyə çalışsaq da cəhdimiz baş tutmadı. Nazirliyin mövqeyini işıqlandırmağa hazırıq.

❑ **Nərgiz LİFTİYEVA**

**Ölkədə üç ay əvvəl baş verən devalvasiya nəticəsində bir çox xarici valyutalar, o cümlədən dollar manat qarşısında bahalaşıb. Ekspertlər bildirirlər ki, bu, eyni zamanda xarici borcların da bahalaşması deməkdir. Banklar xaricdən milyonlarla dollar məbləğində kreditlər cəlb ediblər. Eyni zamanda əhali banklara yatırdıqları əmanətlərin böyük bir hissəsini dollara konvertasiya edib. Nəticədə də 21 fevraldakı devalvasiyadan sonra bankların borcları manatla ifadədə kəskin artıb.**



# Dollara tələbat artır- xarici valyuta yenidən möhkəmlənmə mərhələsində...

## Almaniyalı ekspertlər qeyd edirlər ki, ABŞ-da yaxın gələcəkdə uçot dərəcəsinin artırılması ilə bağlı gözləntilər də dollara olan tələbatı artıracaq...

Aprel ayının 1-nə olan məlumata görə, bankların cəmi öhdəlikləri (borcları) 24 milyard 620,10 milyon manat təşkil edib. Devalvasiyadan öncə, Fevralın 1-də bu rəqəm 20 milyard 625,20 milyon manat idi. Yəni devalvasiya nəticəsində bankların borcu 3 milyard 399,4 milyon manat və ya 19,4 faiz artıb. Bankların passivlərinin 85 faizi öhdəliklərdən, 14 faizi öz kapitallarından ibarətdir.

Bankların öhdəlikləri depozitlərdən, maliyyə sektorundan alınmış kreditlər və depozitlərdən və digər öhdəliklərdən ibarətdir. 01 fevral 2015 - 01 aprel 2015-ci il müddətində depozitlər 1 milyard 643 milyon manat artaraq 10 milyard 803 milyon manatdan 12 milyard 446 milyon manata, maliyyə sektorundan alınmış kreditlər və depozitlər 1 milyard 995,9 milyon manat artaraq 8 milyard 370,10 milyon manatdan 10 milyard 366 milyon manata, digər öhdəliklər isə 355,9 milyon manat artaraq 1 milyard 452,10 milyon manatda 1 milyard 808 milyon manata çıxıb. Bankların kapitalı isə aprelin 1-nə olan məlumata görə, 4 milyard 230,2 milyon manat təşkil edib.

Əgər Konstitusiya Məhkəməsi əhalinin və şirkətlərin xeyrinə qərar çıxardarsa, kreditlər köhnə məzənnə ilə ödənilərsə, banklar təxminən 4 milyard manat artan borcu öz vəsaitləri hesablarına bağlamalı olacaqlar. Bu da demək olar ki, onların kapitalları qədərdir.

Qeyd edək ki, devalvasiyadan sonra bankların aktivləri 4 milyard 12,6 milyon manat artaraq 24 milyard 837,7 milyon manatdan 28 milyard 850,3 milyon manata yüksəlmişdir. O cümlədən, müştərilərə verilmiş kreditlər 1 milyard 902 milyon manat artaraq 17 milyard 184,7 milyon manatdan 19 milyard 87,2 milyon manata, nağd vəsaitlər 51,9 milyon manat artaraq 1 milyard 129,2 milyon manata, müxbir hesablar 853,8 milyon manat artaraq 2 milyard 382,4 milyon manata, maliyyə sektoruna verilmiş kreditlər və depozitlər 447,9 milyon manat artaraq 1 milyard 404,1 milyon manata, investisiyalar 579,4 milyon manat artaraq 2 milyard 547,2 milyon manata, digər aktivlər 183,2 milyon manat artaraq 2 milyard 300,4 milyon manata çıxmışdır.

Xatırladaq ki, mayın 7-də Konstitusiya Məhkəməsinin Mülki Məcəllənin 439.1, 439.2 və 439.7-ci maddələrinin şərh edilməsinə dair Plenumu keçirilərək tərəflər dinlənilib. Məhkəmə qərarını yaxın vaxtlarda açıqlayacağını bəyan edib. (marja)

Almaniyanın ən iri banklarından olan "Deutsche Bank" isə son aylarda ABŞ dollarının dünyanın digər aparıcı valyutalarına qarşı bir qədər zəiflədikdən sonra yenidən möhkəmlənmə mərhələsinə daxil olacağını qeyd edib. Xüsusilə avro ilə dolların məzənnəsinə toxunan "Deutsche Bank" iqtisadçıları ilin sonuna qədər bu valyutaların məzənnə paritetinə çatacağını proqnozlaşdırırlar.

Ötən il mayın 4-dən dolların avroya qarşı məzənnəsi 1,3991 USD/EUR səviyyəsindən ABŞ valyutasının xeyrinə dəyişməyə başlayıb və artıq bu ilin martın 16-da minimum səviyyədə *(1,0456 USD/EUR)* olub. Daha sonra dollar 7 faiz zəifləyib. Nəticədə avro dollara qarşı 9 faiz möhkəmlənib və məzənnə mayın 7-də 1,1392 USD/EUR-a çatıb.

"Deutsche Bank" iqtisadçıları bildiriblər ki, dolların tarixində 10 ən önəmli korreksiyalarından yalnız biri 10 faizdən çox olub. Baş verən son 9 faizlik korreksiya dolların zəifləməsinin sona çatması və yenidən möhkəmlənməyə başlamasına səbəb ola bilər. Almaniyalı ekspertlər qeyd edirlər ki, ABŞ-da yaxın gələcəkdə uçot dərəcəsinin artırılması ilə bağlı gözləntilər də dollara olan tələbatı artıracaq.

Yerli ekspertlər isə bildirirlər ki, 21 fevral devalvasiyasından sonra da valyuta ehtiyatları azalır və bu da ikinci devalvasiya ehtimallarını gücləndirir. Ekspertlərə görə, manatın devalvasiya ehtimalı ciddiləşir. Devalvasiyadan sonra belə ehtiyatlar hər ay 1 milyarddan çox azalır. Azalma bu sürətlə davam etsə, ilin sonuna Mərkəzi Bankın rezervləri tükənəcək. Həmçinin bildirilir ki, son 9 ayda pul bazası 4,3 milyard manat azalıb. Yəni Mərkəzi Bank manat kütləsini məhdudlaşdırmaqla manata valyuta təzyiqini azaltmaq, o cümlədən devalvasiyadan sonra gözlənilən inflyasiya təzyiqini də məhdudlaşdırmağa çalışır.

❑ **RÖYA**

# Göz yaşını sel edən məşəl...



**Samir SARI**

**Çox və tez-tez deyirlər ki, kişi ağlamaz. Guya ki, bu, qeyrət məsələsi ilə bağlıdır, kövrəklik artırsa, qeyrət azalırmış. Hərçənd kövrəklik, duyğusallıq insana xas cəhətdir, qoyun emosional olmur. Hərdən uşağın, böyüyün üstünə cuman emosional qoçlar ola bilər, amma onları da ya tutub bururlar, ya da kəsirlər.**

O da bəlli faktdır ki, qadınlarla kişilər eyni dərəcədə kövrək deyillər. Birincilər çox kövrəkdir, türkün sözü, yapıları belədir. İkincilər isə daha təmkinlidirlər, qabırğalarının bir qədər qalın olması onları hər saat oturub zır-zır ağlamaqdan çəkindirir.

Təbii ki, emosional, kövrək kişilər də var. Bir də görürsən ki, təsirləndilər, gözləri doldu. Açığı, xalqımız belə adamları ciddi qarşılamır, hətta dallarınca pis söz deyirlər. 3-4 ay qabaq bir yazı-pozu adamıyla söhbət edirdik, o içkili idi, bir təsirli cümlə işlətdi və öz sözündən kövrəldi, gözləri doldu, üzrxahlıq edib dedi ki, belə məqamlarda özünü saxlaya bilmir, "petuxlar kimi" kövrəlir. And olsun ki, belə dedi və söhbəti yumor ladına çevirərək emosional ovqatdan qurtulduq.

Hələ o da yadıma düşür ki, 4-5 il əvvəl ölkəmizdə bir səfir vardı, televiziya çıxışlarında tez-tez kövrəlib ağlayırdı. Onun da barəsində yaxşı söhbətlər getmirdi. Çoxları şübhələnirdi ki, əgər o boyda adam bu qədər emosionaldırsa, yüz faiz cinsi orientasiyası laübalıdır.

Xüləs, təcili mətləb üzərinə keçmək lazımdır, yoxsa camaat elə biləcək ki, müəllif yenicə Freydin kitabını oxuyub və burada insan psixologiyasının dərin qatlarına dalır.

Əslində indi sizə bəhs edəcəyim hadisəyə də psixoanaliz nəzəriyyəsi ilə yanaşmaq doğru olardı, ancaq qorxuram bundan əkə-bükə psixoanalitiklər də baş açmaya.

Çünki özlüyündə bir idman kostyumu geyinmiş idmançının və onu müşayiət edən bazburutlu idmançıların əlində bir məşəlin yana-yana rayon mərkəzindəki meydana daxil olmasında o qədər də kövrək elementlər yoxdur. Söz yox, bundan qürur duymaq, riqqətə gəlmək olar, hətta fəxarətdən, sevincdən adamın gözü də yaşara bilər, amma bir el ağsaqqalının, rayon rəhbərinin xaqlın gözü qarşısında yanar məşələ baxaraq ağlaması Freydi belə mat qoyacaq hadisədir.

Bu olay bu qədər kövrəldici olsaydı, onda gərək o məşəli daşımaq şərəfinə layiq görülmüş idmançı, eləcə də məşəlin böyrüncə qaçan müşayiətçi idmançılar yol boyu ağlaşa-ağlaşa qaçaydılar.

Hətta bu yanar məşəl insanı bu qədər kövrək ovqata kökləyə bilərdisə indiyə qədər gəzdiyi 47 rayonda da ən azı 7-8 İH başçısını ağlatmalıydı, 10-15-ni kövrəltməliydi. Deyək ki, onların içində 5-6 islaholunmaz gönüqalın kadr var ki, heç bir halda ağlamazlar, amma yerdə qalanın gözündə ən azı iki gilə yaş parıldamalıydı.

Ancaq məlum olduğu kimi, məşəlin yana-yana dolaşdığı rayonlarda heç bir İH başçısı onu görəndə ağlamayıb və bu mübarək iş gəlib Zərdabda baş verib.

Bu hadisə Zərdabda yox, Şəmkirdə baş versəydi, yenə başa düşmək olardı. Çünki nə vaxt saytları açırsan, Şəmkirin İH başçısının növbəti dəfə döyüldüyü barədə xəbər oxuyursan. Belə görünə bilər ki, adamı döyə-döyə emosionallaşıdırıblar, artıq özünü saxlaya bilmir.

Ancaq Zərdabın İH başçısına güldən ağır söz deyən yoxdur, bığlı-saqqallı kişi bir məşələ görə niyə ağlasın ki.

Tərs kimi, heç bir versiya yoxdur. Bunu rəhbərliyə yarınmaq kimi də qələmə vermək mümkün deyil. Əksinə, ölkə rəhbərliyi bir İH başçısının bu qədər kövrək biri olduğunu bilsə, ilk fürsətdə vəzifədən çıxarıb atar, deyər, bizə gözünün yaşı ovcunda olan başçı lazım deyil.

Məsələni yazının əvvəlində bəhs etdiyimiz mətləblərə istinad edərək çözmək də alınmır.

Hər halda, zərdablıları təbrik etmək olar. Onların rəhbərləri bu qədər ürəyi yuxadırsa, demək, mərhəmətlidir, insanpərvərdir, əlindən pislik gəlməz.

Yox, adam məşəli görəndə ağlayırsa, amma sonra camaatın atasını məşəlsiz yandırırsa, buna artıq Freydin müasir davamçıları qiymət verməlidir.

# Avropa Oyunları hansı kanallarda canlı yayımlanacaq?

## Xeyli sayda ölkənin televiziyası ilə müqavilə bağlanıb

**Dünyanın idman tarixinə mühüm hadisə kimi tarixə düşəcək I Avropa Oyunlarının başlamasına sayılı günlər qalıb. 12-28 iyunda baş tutacaq ilk Avropa Oyunlarında Avropa qitəsi üçün çoxsaylı idman növləri üzrə çox maraqlı və innovativ yarışların keçirilməsi gözlənilir.**

Qeyd edək ki, Bakı 2015 Avropa Oyunlarının açılış və bağlanış mərasimləri, yarışlar dünyanın bir çox ölkələrində canlı olaraq yayımlanacaq. Bununla əlaqədar olaraq "Bakı 2015" Avropa Oyunları Əməliyyat Komitəsi bir neçə Avropa ölkəsi ilə əsas yayım sazişləri imzalayıb. Onlar Türkiyənin "NTV spor", Fransanın "L'Equipe 21", İspaniyanın RTVE, Estoniyanın ERR, Latviyanın LTV, Sloveniyanın "RTV Sloveniya" və Portuqaliyanın ödənişli "Sport TV" kanallarıdır. Ən son isə Böyük Britaniya ilə müqavilə imzalanıb. Nümayişi isə "BT Sport" idman agentliyi öz üzərinə götürüb. Televiziya şəbəkəsində həmçinin "Bakı 2015" Avropa Oyunları ilə bağlı gedən hazırlıqlara həsr olunmuş "Bakıya yol" (Road to Baku) verilişi də nümayiş olunacaq.

Ümumilikdə ilk Avropa Oyunlarının yayımlanmasının təşkili üçün artıq 50-yə yaxın ölkə ilə müqavilə bağlanıb. Bunlar ABŞ, Kanada, Avstraliya, Çin, Honq Konq, Hindistan, Avropa, Latın Amerikası və körfəz ölkələridir. Oyunlar gündəlik olaraq bütün gün ərzində və ya minimum saatlar çərçivəsində qeyd edilən kanallar və onların veb-saytı, mobil platformaları vasitəsilə yayımlanacaq.

Gənclər və İdman Nazirliyindən verilən məlumata görə, yarışlar dünyanın 74 ölkəsində canlı yayımlanacaq.

Bəs Avropa Oyunları yerli telekanallardan necə yayımlanacaq?




Bununla bağlı "Yeni Müsavat"ın əməkdaşı Milli Televiziya və Radio Şurası Aparatının rəhbəri Toğrul Məmmədova müraciət edib. Lakin məsələ ilə əlaqədar Toğrul Məmmədov əməkdaşımıza heç bir məlumat verməyib.

Qeyd edək ki, Bakı 2015 Avropa Oyunları ümumilikdə 20 idman növü üzrə keçiriləcək: bunlardan 16-sı olimpiya idman növü, 4-ü qeyri-olimpiya idman növü olacaq. Avropanın müxtəlif ölkələrindən 6000-dən çox idmançı yarış müddətində öz ölkələrini təmsil edəcəklər.

❑ **Xalidə GƏRAY**

# "Xırdalan dairəsi"ndəki problemə son qoyulacaq

**"Xırdalan dairəsi"ndə aparılan təmir-tikinti işləri tez bir zamanda yekunlaşdırılacaq. Nəqliyyat Nazirliyi "Azəryolservis" ASC-dən ANS PRESS-ə verilən məlumata görə, qurum tərəfindən I Avropa Oyunları öncəsi paytaxtın bəzi küçə və prospektlərində təmir-tikinti işləri həyata keçirilir.**

Bakı-Quba-Rusiya Federasiyası sərhədi avtomobil yolunun 11-ci kilometrliyində yerləşən "Xırdalan dairəsi"ndə də təmir işləri aparılır. Bu ərazidə köhnə asfalt-beton örtüyünün yerinə yenisi döşənir. Bu üzdən dairədə və yan yollarda nəqliyyat vasitələrinin hərəkəti tam məhdudlaşdırılıb. Bakı-Sumqayıt və əks istiqamətə hərəkət edən nəqliyyat vasitələri dairənin alt hissəsindən keçən tuneldən maneəsiz şəkildə istifadə edə bilərlər. Xırdalan şəhərinə daxil olan nəqliyyat vasitələri Bakı-Quba-Rusiya Federasiyası sərhədi avtomobil yolunun 13-ci kilometrliyində yerləşən "Masazır dairəsi"ndən istifadə etməklə, Binəqədi və Biləcəri qəsəbələri istiqamətinə doğru hərəkətdə olan nəqliyyat vasitələri isə "Ekologiya postu"ndan sağa dönməklə hərəkətlərini davam etdirə bilərlər. Bundan başqa, sürücülər alternativ olaraq Binəqədi şossesindən də istifadə edə bilərlər.

"Xırdalan dairəsi"ndə təmir işlərinin tez bir zamanda yekunlaşdırılması üçün bütün qüvvələr səfərbər edilib. Nəqliyyat Nazirliyi "Azəryolservis" ASC müvəqqəti narahatlığa görə sürücülərdən üzr istəyir və görülən işlərə anlayışla yanaşmalarını xahiş edir.



# Bakıda qanlı qonşu davası; bir ölü

**Azərbaycan paytaxtında qətl törədilib. APA-nın məlumatına görə, hadisə Suraxanı rayonunun Zığ qəsəbəsində qeydə alınıb. Bakı şəhər sakinləri Hacıbağır Bağırov, atası Ehtiram Bağırov və qonşusu Rüstəm Qurbanov münaqişə zəminində qonşuları Ənnağı Baxışovu və qardaşı Zaur Baxışovu bıçaqlayıblar. Ə. Baxışov xəstəxanaya aparılarkən yolda keçinib. Hadisəni törətməkdə şübhəli bilinən hər üç şəxs saxlanılıb. Faktla bağlı araşdırma aparılır.**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər**)
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** (*vəzidə düyünlərin əmələ gəlməsi*)
* **Cinsi vəzilərin**-xayaların **böyüməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


# Əsgərlik yoldaşını söyüş üstündə öldürdü və...

**Bakı Ağır Cinayətlər Məhkəməsində qətl törətməkdə təqsirli bilinən 1994-cü il təvəllüdlü Zamin Məcidlinin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.Virtualaz.org saytının əldə etdiyi məlumata görə, prosesə hakim Azad Məcidov sədrlik edib. Təqsirləndirilən şəxs ona elan olunmuş ittihamla özünü təqsirli bilib.**

Məhkəmədə Zamin Məcidlinin anası Adilə Əzizova ifadə verib. O, ifadəsində mərhum Nurlan Xudiyevi tanıdığını, sonuncunun bir neçə dəfə onlara gəldiyini bildirib.

Qeyd edək ki, qətl hadisəsi Sabunçu rayonu, Bakıxanov qəsəbəsində yerləşən yanacaqdoldurma məntəqəsinin yaxınlığında qeydə alınıb. Bakı şəhər sakini Zamin Məcidli 12 iyul, 2014-cü ildə həmyaşıdı olan Salyan rayon sakini Nurlan Xudiyevi bıçaqlayaraq öldürüb.

Zamin Məcidli şübhəli şəxs qismində dindirilərkən törətmiş olduğu cinayəti etiraf edib. O, bıçağı və Nurlan Xudiyevin üzərində olan fotoşəkilləri yaşadığı evin həyətində basdırıb.

İstintaq araşdırması zamanı hadisənin söyüş üstündə baş verdiyi məlum olub. Hadisə zamanı Nurlan Xudiyev dostu olan Zamin Məcidlini söyüb. Onun söyüşlərindən əsəbiləşən Zamin Məcidli bıçağa əl atıb.

Zamin Məcidli və Nurlan Xudiyev bir yerdə hərbi xidmətdə olublar.

# Magistraturaya keçirilmiş müsabiqənin nəticələri açıqlanıb

**Azərbaycanda ali təhsil müəssisələrinin magistraturalarına keçirilmiş müsabiqənin nəticələri elan olunub. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) mətbuat xidmətindən APA-ya verilən xəbərə görə, 2015/2016-cı tədris ili üçün Azərbaycan ali təhsil müəssisələrinin magistraturalarına müsabiqənin nəticələri mayın 13-də saat 17:30-dan etibarən komissiyanın internet saytında yerləşdirib.**

Bakalavrlar qəbulun nəticələri ilə bağlı məlumatı komissiyanın internet saytından və mobil telefondan iş nömrəsini 7727 nömrəsinə SMS-lə göndərməklə, öyrənə bilərlər. Qəbul olunanların siyahısı mayın 14-də "Magistr" jurnalının 5-ci sayında dərc olunacaq.

Müsabiqənin nəticələrinə əsasən, ixtisaslaşma seçimində iştirak edən 7179 bakalavrdan 5017 nəfəri respublika ali təhsil müəssisələrinin magistraturalarına qəbul olub. Qəbul olanlardan 3286 nəfəri ali təhsil müəssisələrinin builki, 1731 nəfəri isə əvvəlki illərin məzunudur. Onlardan 2073 nəfəri oğlanlar, 2944 nəfəri isə qızlardır.

Bundan əlavə, 2 bakalavr idman sahəsi üzrə, 1 bakalavr isə incəsənət sahəsi üzrə yüksək səviyyəli beynəlxalq yarışların və müsabiqələrin qalibi olduğu üçün magistratura səviyyəsinin müvafiq ixtisaslarına müsabiqədənkənar qəbul olunub.

Ali təhsil müəssisələrinin magistratura səviyyəsinə qəbul olanlar iyunun 8-dən 17-dək (şənbə və bazar günləri istisna olmaqla) tələb olunan sənədləri təqdim etməklə, qəbul olduqları ali təhsil müəssisəsində qeydiyyatdan keçməlidirlər. Qeyd olunan müddətdə sənədləri təqdim etməyən və qeydiyyatdan keçməyən bakalavrlar qəbul olanlar siyahısından xaric ediləcəklər.


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34



## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Qəbələdə çox mənzərəli yerdə 60 sot sahəsi bir bağ satılır. Bağda 75 ədəd meyvə ağacı var. Hündür dağın düz ətəyindədir. Kvadrat şəklindədir. Qazı, suyu, işığı var. Bakı-Qəbələ yolundan 800 metr məsafədədir. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Qəbələ rayonunda tam işlək vəziyyətdə olan parket fabriki bütün avadanlıqları ilə birlikdə satılır. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**


# "Neftçilər"də avtobus dayanacağa girdi



**Mayın 13-də metronun "Neftçilər" stansiyası yaxınlığında "Shaolin" markalı avtobus dayanacağa girib. Bu haqda musavat.com-a məlumat verən hadisə şahidləri deyiblər ki, qəza törədən avtobus "Transqeyt" şirkətinin texniki xidmətinə məxsus olub. Avtobusun dayanacağa girməsinə səbəb isə ərazidə xidmət aparan yol polisi əməkdaşlarının səhvi olub.**

Belə ki, YPX əməkdaşlarının səsgücləndirici ilə sürücüyə dayanacağın yanından tez keçməsini dəfələrlə göstəriş vermələri onu çaşqın duruma salıb. Sürücü manevr edib ərazidən uzaqlaşmaq istəyərkən yüksək sürətlə dayanacağa girib. Hadisə şahidlərinin sözlərinə görə, YPX əməkdaşları hadisədən sonra ərazidən uzaqlaşıblar. Məlum olub ki, sürücü qəzadan yan keçmək üçün əyləc sistemindən istifadə edib, lakin avtobus dayanmayıb. "Transqeyt" şirkətinin texniki xidmətində olan avtobusun əyləc sisteminin texniki xidmətə ehtiyacı da üzə çıxıb.

❑ E.HÜSEYNOV

# Bakıda şirkətdən 28 min manat dəyərində oğurluq edilib

**Bakıda oğurluq hadisəsi baş verib. APA-nın məlumatına görə, hadisə Qaradağ rayonunda, Bakı - Salyan şossesinin 25-ci kilometrliyində yerləşən "CİDC Baku MMC"də qeydə alınıb.**

Naməlum şəxs və ya şəxslər şirkətdən 155 ədəd işıq plafonu, 200 ədəd projektor lampası və 16 ədəd müşahidə kamerasını oğurlanıb.

Oğurlanan malların ümumi dəyərinin 28 min manat olduğu bildirilir.


## Elan

**Tağıyeva Cənnət İxtiyar qızına aid şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

**Əfəndiyev Rauf Tofiq oğlunun Hüseynov Fətulla Əziza-ğa oğlundan etibarnamə əsasında aldığı bağ evinin 5212 saylı bağ sahəsinə dair order itdiyi üçün etibarsız sayılır.**




# ««Nar»» Azərbaycan «Nar» operatorunun dəstəyi ilə növbəti "Youth to Business Forum"unu həyata keçirmişdir

**10 may tarixində gənclər üçün ən böyük biznes yönümlü layihələrdən biri olan "Youth to Business Forum"u Nar mobil operatorunun dəstəyi ilə «Nar» Azərbaycan təşkilatı tərəfindən ADA-da həyata keçirilmişdir. Dünya üzrə 50-dən çox ölkədə keçirilən beynəlxalq layihələrdən biri olaraq, "Youth to Business Forum"u gəncləri korporativ dünya ilə əlaqələndirməyi hədəfləyir. Forumun əsas məqsədi iştirakçıları kitablardan yiyələnə bilməyəcəkləri biznes sirrləri və uğur hekayələri ilə tanış etməkdir.**

**"Youth to Business Forum"u 18 təlim və 3 mövzusu ilə 200 Azərbaycanlı gənci bir araya gətirdi. Bu il "Build up to Lead" (Rəhbərlik etmək üçün yaranmış) adlı forumun mövzuları Strateji Marketinq, Biznes İnnovasiyaları və Sahibkarlıq oldu. Forumun təlimçiləri Nigar Arpadarai, Bəhram Qurbanov, Sona Abbasova, Umut Çağatay, Anar Bayramov kimi uğurlu simalar təlimlər keçmiş və öz təcrübələrini iştirakçılar ilə bölüşmüşlər.**

**Həmçinin forumda Gənclər və İdman Nazirliyinin, «Nar» operatorunun, GRBS şirkətlər qrupunun, «Golden Pay» şirkətinin, «Paşa Bank»ın, «Yüksək Texnologiyalar Park»ının və «Azgranata MMC»nin nümayəndələri də iştirak etmişdi.**

**Qeyd etmək lazımdır ki, «Nar» Azərbaycan tədbirlərinin platinium sponsorudur. «Nar» Azərbaycan və forum haqqında ətraflı məlumatı http://azerbaijany2b.com/ saytında əldə etmək olar.**

YENİ MÜSAVAT
N 103 (6131) 14 may 2015


Adil Qeybulla

# Epilyasiya insanı öldürə də bilər, əgər...

**Adil Qeybulla:** "Belə bir proseduru seçən şəxsin öncədən müayinədən keçməsi vacibdir, bu işlə məşğul olan şəxsin tibbi savadı olmalıdır..."

**El arasında "Gözəllik qurban tələb edir" deyə bir deyim var. Azərbaycanda da bir çox xanımlarımız, hətta bəzi kişilər xarici görünüşlərinin gözəlliyi üçün bədənlərinə şüa yeridilməsinə, iynə ilə deşilməsinə, bıçaq altında yatmağa belə razı olurlar. O sırada epilyasiya deyilən prosedur da var. Söhbət bədəndəki arzuolunmaz tüklərdən qurtulmaqdan gedir.**

Son vaxtlar epilyasiyaya müraciət edənlərin və istədikləri nəticəni ala bilmədiklərini deyənlərin sayı artıb. Hətta səhhətə mənfi təsir halları üzə çıxıb. Bəs bu prosedurun səhhətə nə dərəcədə zərəri var və arzuolunmaz tüklərdən bu yolla tam qurtulmaq mümkündürmü?

Alimlərin araşdırması nəticəsində məlum olub ki, insan orqanizmindəki tüklərin kökünü birdəfəlik kəsmək mümkünsüzdür. Əvvəllər tədqiqatçılar düşünürdülər ki, tük folikulunu (soğanağını) məhv etməklə onlardan birdəfəlik xilas olmaq olar. Amma sonra bəlli oldu ki, bu da yetərli deyil. Belə ki, 80-ci illərin əvvəllərində cərrah Bouman əməliyyat vasitəsilə bir qadının qoltuqaltındakı tükləri folikullar və tük hüceyrələrinin böyüyüb çoxaldığı qatla birlikdə götürür. Lakin bir müddət sonra tüklər yenidən çıxmağa başlayır.

Yalnız 14 ildən sonra Pensilvaniya Universitetinin alimləri bu məsələni aydınlaşdırdılar. Məlum oldu ki, tüklərin çıxmasına səbəb rüşeym hüceyrələridir. Bu hüceyrələr tük köklərinin ətrafında və piy vəziləri ilə əzələlər arasında yerləşir. Orqanizmdə folikul tam məhv olsa belə, orada rüşeym hüceyrələri varsa, tüklər mütləq yenə bitəcək. Lazer epilyasiyasının çatışmayan cəhətlərindən biri də odur ki, bu vasitə ilə rüşeym hüceyrələrini məhv etmək mümkün deyil. Çünki bu hüceyrələr rəngsiz olduqları üçün lazer şüası onları görmür.

Onu da qeyd edək ki, epilyasiyaya məruz qalan dəri sahəsi sağlam olmalı, bu sahədə yara, cızıqlar və iri xallar olmamalıdır. Lazer epilyasiyasından istifadə edən əməliyyatçı şəxsin kosmetoloq, dermatoloq olması da vacib şərtdir. Hər dərinin rənginə ayrı dozada lazer işığı verilir. Müştəri öz sağlamlığı haqda məlumat verməli, hər hansı işığa, Günəş şüasına həssaslığını, dəri və ya onkoloji xəstəliyi olmasını bildirməlidir.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla epilyasiya etdirən şəxsin əvvəlcədən müayinədən keçməsini vacib sayır:** "Epilyasiyanın mexaniki olaraq tüklərin təmizlənməsindən tutmuş müxtəlif fiziki üsullarla, yəni foto-epilyasiya, lazer-epilyasiya və sairə kimi metodları var. Bunların hər biri tük dibinin molekullarının boşaldılması və tüklərin oradan xaric edilməsi mexanizmindən ibarətdir. Mexaniki üsul müxtəlif yapışdırıcının bədənə sürtülməsi və dartılması ilə həyata keçirilir. Bu, çox ağrılı prosedurdur. Tarixən də bu cür həyata keçirilib. Ümumiyyətlə, epilyasiya tarix boyu həyata keçirilən və xüsusən də qadınlar arasında daha geniş yayılmış prosedur olub. Ondan sonra müxtəlif təbii daşlar olub ki, ondan istifadə edərək epilyasiya həyata keçiriblər. Elm və texnikanın inkişafı ilə lazer, foto-epilyasiya və digər metodlar artıq mövcuddur. Bu metodların hər biri peyda olmazdan əvvəl onun insan orqanizmi üçün zərərli təsirlərinin hamısı araşdırılır. Hər bir proseduranın ayrı-ayrı və yanaşı xəstəliklərdə, hamiləlikdə və digər situasiyalarda məhdudiyyəti onun təlimatında yazılır. Təbii ki, onu işlədən adamlar da təlimata uyğun hərəkət edirlər. O baxımdan bu proseduralar orqanizm üçün çox ciddi fəsad yaradacağı halda tətbiq oluna bilməz. Bugünkü epilyasiya metodları kifayət qədər təhlükəsizdir".

**A.Qeybulla çox yerlərdə, xüsusən də kosmetoloji salonlarda epilyasiya edərkən insanın səhhətinə, analizlərinə baxılmadığını, bununsa müxtəlif xəstəliklərə səbəb olduğunu dedi:** "Epilyasyon kremlər də var ki, onlar arı-ayrı lokal yerdəki tükləri təmizləyir. Lakin lazer və foto-epilyasiya tüklərin uzun müddətə təmizlənməsi metodudur. Yenə qeyd edim ki, epilyasiya prosedurunu aparan şəxs onun əks təsirlərindən, təlimatından məlumatlı olur və vətəndaşlara xidmət etməzdən qabaq onların analizlərini toplayır. Onun epilyasiya olunub olunmamasını dəyərləndirdikdən sonra bu proseduranı aparır. Əslində bu işlə məşğul olan adamların ən azı tibbi savadı olmalıdır. Təəssüflər olsun ki, elə yerlər var, bu proseduru həyata keçirən şəxslərin belə savadı, biliyi, məlumatı yoxdur. Epilyasiyaya gələn şəxslərin isə analizlərinə baxılmadan bunu həyata keçirirlər. İstər kosmetoloji kabinetlərdə, istərsə də tibbi kabinetlərdə insan üzərində aparılan bütün proseduraların ən azı tibbi lisenziyaları olmalıdır".

❑ **Günel MANAFLI**

# Ev almaq istəyənlərə şad xəbər

## İqtisadi proseslər Bakıda mənzillərin ucuzlaşmasına səbəb olub






**Əmlak bazarında durğunluq hökm sürür. Həm mənzil dəllalları, həm də ekspertlər bazarda yaranan vəziyyətin səbəbini son iqtisadi proseslərlə əlaqələndirirlər.**

Qonşu ölkələrin, xüsusən Rusiyanın təcrübəsinə nəzər salsaq, bu, ölkədə milli valyutanın dəyərdən düşməsi mənzillərin ucuzlaşmasına və daşınmaz əmlak bazarına daha çox investisiya yatırılmasına gətirib çıxartdı. Vəziyyət o yerə çatdı ki, xarici ölkələrdən, o cümlədən Azərbaycandan da depozit sahibləri Rusiyanın əmlak bazarına yatırım etdilər. Azərbaycanda isə manatın devalvasiyası əmlak bazarında durğunluqla müşahidə olundu. Hazırda demək olar ki, alqı-satqı əməliyyatları yox dərəcəsindədir.

"Yeni Müsavat"ın müxbiri əmlak bazarındakı vəziyyəti öyrənmək üçün paytaxtın müxtəlif istiqamətlərində yerləşən "ofis"lərə baş çəkib.

Daşınmaz əmlak bazarında durğunluq yaşandığını maklerlər də təsdiqləyib. Onların sözlərinə görə, manatın devalvasiyasından sonra heç bir alqı-satqı əməliyyatı həyata keçirə bilməyiblər. Mənzillər gündən-günə dəyər itirdiyindən əlində müəyyən vəsaiti olanlar da gözləmə mövqeyinə keçib.

**Sahib adlı makler tələbatın azalması səbəbindən bazarda real qiymətlərin 15-20 faiz ucuzlaşdığını deyir:** "Alıcı olmadığı üçün evini təcili satmaq istəyənlər məcbur qalıb ucuz qiymət qoyurlar. Məsələn, Xətai rayonunda əvvəllər 1 otaqlı mənzil 65 min manata satılırdısa, indi 55 min manatdan təklif olunur. İki otaqlı mənzillər 85 min manatdan 70 min manata qədər ucuzlaşıb". Maklerin sözlərinə görə, ucuzlaşma daha çox "Xruşşovka", "Stalin" tipli binalara aid mənzillərdə müşahidə olunur.

**Başqa bir mənzil dəllalı isə bazardakı durğunluğun səbəbini bankların kredit siyasətində olan dəyişikliklə əlaqələndirib. Maklerlərin sözlərinə görə, indi əhali daha çox şəhər kənarlarındakı ucuz torpaqlara üstünlük verir:** "Bir müddət fikirləşirdik ki, "Sovetski" və digər söküntü gedən yerlərdən köçən insanlar əmlak bazarını canlandıracaq. Ancaq onlara verilən vəsait o qədər az oldu ki, şəhər kənarına üz tutdular. Şəhər daxilindən ev ala bilmədilər".

Maklerlə söhbətdən o da məlum oldu ki, Avropa Oyunlarından sonra mənzil bazarında canlanma gözlənilir. Hökumət mənzil bazarına ayrılan ipoteka kreditlərini artırsa, bu, müəyyən canlanma yaranmasına şərait yaradacaq.

Kirayə mənzil bazarında da vəziyyət ürəkaçan deyil. İş yerlərindəki kütləvi ixtisarlar, işsizlik bölgələrdən gəlib Bakıda işləyən insanları geri qayıtmağa vadar edib. Bu baxımdan kirayə mənzillərə tələbat azalıb, qiymətlərdə isə hər hansı dəyişiklik yoxdur. Yeni dərs ilinin başlamasına qədər bu durum belə davam edəcək.

**Bazardakı mövcud vəziyyəti dəyərləndirən əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı bunun səbəbini Azərbaycanın iqtisadiyyatında baş verən son proseslərlə əlaqələndirdi:** "Ötən ilin sonlarından başlayaraq dünya bazarında neftin qiymətlərinin ucuzlaşması, Rusiyada baş verənlərin Azərbaycana təsiri, manatın dəyərdən düşməsi, əmlak bazarı ilə bağlı qəbul olunan qərarlar və bütün bunların ard-arda baş verməsi daşınmaz əmlak bazarındakı vəziyyəti çox ciddi şəkildə dəyişdi. Hazırda bazarda durğunluq yaşanmasının səbəbi də məhz budur. Bazarda alıcı qıtlığı var. Nəzərə alsaq ki, son dövrlər ipoteka kreditlərinin istiqaməti tədricən şəhərin mərkəzindən regionlara doğru genişlənir. Bakı şəhərində ipoteka ilə mənzil əldə olunması çox aşağı səviyyədədir. Bunun da müəyyən qədər əmlak bazarındakı vəziyyətə təsiri var. Ümumi şəkildə belə demək olar ki, bu gün nağd şəkildə mənzil alınması prosesi məhdudlaşdırılır".

**R.Osmanlının sözlərinə görə, manatın devalvasiyasından sonra proqnozlar ondan ibarət idi ki, əhali depozitlərini banklarda deyil, daşınmaz əmlak bazarına yatırmağa üstünlük verəcək və bu da bazarı canlandıracaq. Ancaq bu proqnozlar da özünü doğrultmadı:** "Digər tərəfdən, ötən ayda hökumət tərəfindən bazara vəsait axınının həcmi də kəskin azaldı. Şəhərdəki söküntü prosesləri, köçürmələr səngidi. Bütün bunların nəticəsində bazarda passivlik hökm sürür. Tələbin azalması isə bazarda qiymətlərin aşağı düşməsinə gətirib çıxarır".

**Ekspert bankların kredit siyasətinin də əmlak bazarına təsir etdiyini vurğuladı:** "Biz gözləyirdik ki, Mərkəzi Bank sərt pul siyasətindən yumşaq pul siyasətinə keçiddə nəzəri amilləri nəzərə alacaq, kommersiya banklarına müəyyən qədər resurs ayıracaq, bazarda manatın həcmi artırılacaq , kreditlərin faiz dərəcələri aşağı salınacaq, ancaq bu baş vermədi. Dolların yenidən bahalaşacağı ilə bağlı proqnozların səsləndirildiyi bir şəraitdə əhalinin dollarla kreditlərə üstünlük verəcəyini gözləmək də mümkün deyil. Kreditlərin azalması da mənzillərin alınması ilə bağlı çətinlik yaradır. Bütün bu proseslərdən sonra əhali depozitlərini daha çox dollara çevirərək əllərində saxlamağa üstünlük verir. Son proseslərdən sonra banklara da inam azalıb. Əgər xaricdə bu vəsaitlər daha çox əmlak bazarına yatırılırdısa, Azərbaycanda bu baş vermədi".

**Kirayə bazarına gəlincə, ekspert qeyd etdi ki, burada ciddi proses baş vermir:** "Kirayə bazarında dinamik vəziyyət adətən iyun ayının ortalarında başlayır və avqust ayına kimi davam edir. Hələ ki kirayə bazarı üçün passiv dövrdür. Hər il bu eyni şəkildə olur. Növbəti aylarda da kirayə bazarında hər hansı qiymət dəyişikliyinin olması gözlənilmir".

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar müəllifindir**

Yeni Müsavat
Son səhifə
N 103 (6131) 14 may 2015



## Prezidentin iclasında mürgülədi, güllələndi

Şimali Koreya diktatoru daha bir məmuru edam edib. Ölkənin müdafiə nazirinin güllələnməsinin səbəb onun yuxusuz qalaraq iclasda mürgüləməsi olub. 2012-ci ildən Şimali Koreyanın müdafiə naziri olan Hyon Yonq-col dövlət başçısı Kim Çen Inın qatıldığı tədbirlərdən birində mürgüləyib. Bundan sonra o, liderə qarşı "sədaqətsizlik və hörmətsizlikdə" ittiham edilərək edama məhkum edilib. Cənubi Koreyanın "Yonhap" agentliyinin məlumatına görə, nazir aprelin 30-da artilleriya silahı ilə güllələnib.

Qeyd edək ki, bir neçə gün öncə Kim Çen Inın bibisinin zəhərlənməsi barədə xəbər yayılmışdı. Ötən il infarktdan öldüyü güman edilən qadının zəhərləndiyi haqqında informasiya yayılıb. Bunu isə Şimali Koreya liderinin bibisinin əri ilə arasında olan anlaşılmazlığa görə etdiyi bildirilirdi.



## Depressiyaya qarşı aspirin

İngilis mütəxəssislər yaxın zamanlarda depressiya müalicəsində aspirinin istifadəsinin mümkün olacağını deyiblər. Depressiyaya qarşı dərmanların kökəlməyə, yorğunluğa, yuxusuzluğa yol açdığını deyən həkimlər aspirinin daha zərərsiz olduğunu iddia edirlər.

2013-cü ildə Danimarkanın Arthus Universitetində aparılan bir başqa araşdırmada 3 milyon 600 min nəfərin səhhəti araşdırılıb. Əzələlərində ağrılar olan xəstələrdə depressiya riskinin daha çox olduğu məlum olub. Sepsis və qaraciyər xəstəliklərindən əziyyət çəkənlərdə isə bu risk 62%-dir. Həkimlər bədəndəki iltihabların depressiyaya birbaşa təsir etdiyini deyirlər.

# 28 yaşında 33 dil bilir



Polşada yaşayan 28 yaşlı Mişel Perlinski 33 dildə danışa bilir, 33 dildən on beşində isə ana dili kimi danışır. Almaniyanın Ruhr Universitetində təhsil alan gənc oğlan polyakca (ana dili), almanca, ingiliscə, fransızca, italyanca, ispanca, portuqalca, hollandca, çexcə, rusca, danimarkaca, isveçcə, norveçcə, rumınca, yunanca, türkcə, fincə, macarca, ərəbcə, ibrani dilində, çincə danışa bilir.

Beynin quruluşunu və funksiyalarını araşdıran mütəxəssislər Perlinskinin dil öyrənməyi məntiq çərçivəsində etmədiyini, şəkil yaddaşına sahib olduğu üçün gördüklərini beynində həkk edərək öyrəndiyini deyirlər. O, yaddaşı güclü olduğu üçün asanlıqla dil öyrənə bilir. Bir sözü iki dəfə gördükdən sonra heç vaxt unutmadığını deyir.

# Arıq qalmağın 10 asan yolu



İngiltərədə qidalanma üzrə mütəxəssis olan Bonnie R Giller "Vatçif" internet saytına verdiyi müsahibədə çox yemək yeməyi əngəlləməyin və arıq qalmağın 10 yolunu göstərib:

1. Yeməyi yavaş-yavaş çeynəmək;
2. Daha çox tox tutan yeməklər yemək;
3. Çox su içmək;
4. Doyduğunuz zaman yeməkdən qalxmaq;
5. Porsiyaları azaltmaq;
6. Kiçik boşqablardan istifadə etmək;
7. Televizor qarşısında yemək yeməmək;
8. Qazanı yemək stolunda saxlamamaq;
9. Yeməkləri kiçik hissələrə ayırmaq;
10. 7-10 saat yatmaq.

## Varlılar da oğurluq edir



İsveçin paytaxtı Stokholmda nəqliyyat xidməti göstərən "Stokholm Lokaltrafik"in başçısı Andres Lindtröm oğurluğa görə nəzarətə götürülüb. "Aftonbladet" qəzetinin xəbərinə görə, ayda 110 min kron maaş alan Lindtröm ötən həftə iş üçün getdiyi Honq-Konqdan qayıtmaq üçün hava limanında gözləyərkən 61 kron dəyəri olan pul qabını oğurlayarkən ələ keçib. Polis şöbəsinə aparılan şirkət rəhbərinə pul cəzası kəsildikdən sonra azadlığa çıxıb. Lakin şirkət rəhbərinin istefaya göndəriləcəyi haqda xəbərlər yayılıb.



## İnsanın ən yaxın dostu dəyişir

Yaxın gələcəkdə robot heyvanlar da gerçək heyvanların yerini ala biləcək. Belə ki, heyvanları qoruma üzrə araşdırmaçı Jean Luop Rault gerçək heyvanların bir müddət sonra əlçatmaz olacağını açıqlayıb. Çünki insanların sayı sürətlə artdığından, Rault hesab edir ki, insanlar robot itlər saxlamağa başlayacaqlar: " Bu bizə inanılmaz kimi görünə bilər. Lakin önümüzdəki illərdə robot itlər həyatımızın bir parçasına çevriləcək. Əgər dünyada insanların sayı biz düşündüyümüz kimi artmağa davam edərsə, bu bizim təxmin etdiyimiz vaxtdan da tez olacaq. Bundan 20 il öncə facebookdan kimə bəhs etsəydiniz, sizə "dəli" deyərdi. Artıq Yaponiyada robot it saxlayanlar var".




**QOÇ** - Daxili gərginliyiniz xeyli səngiyəcək. Bu isə başınıza yeni ideya və perspektivli fikirlərin gəlməsinə səbəb olacaq. Həlli mürəkkəb olan işlərə girişməyin. Sizə passivlik yaraşmır.

**BUĞA** - Paxıl və bədxah adamların müdaxilələrinə fikir verməyin. Həqiqətə yaxın olan arzularla yaşayın. Bürcünüzün "hakimiyyətdə" olduğu bu gözəl gündə enerjinizi boş şeylərə görə itirməyin.

**ƏKİZLƏR** - Saat 15-ə qədər nəzərdə tutduğunuz planları reallaşdırmaqda heç bir problemlə rastlaşmayacaqsınız. Sonrakı müddətdə isə ehtiyatlı olun. Axşam saatlarını evdə keçirməyə çalışın.

**XƏRÇƏNG** - Giley-güzara, kimi gəldi ittiham etməyə vaxt itirməkdənsə, reallığı nəzərə alın. Özünüzə tənqidi yanaşın. Bunu bacardığınız təqdirdə nahardan sonra ruhi rahatlıq hiss edəcəksiniz.

**ŞİR** - İştirakçısı olduğunuz prosesləri gərginləşdirməyin. Qanqaraldan işlərə meyl etməsəniz, hörmətiniz artacaq. Günün ikinci yarısını bütünlüklə maliyyə məsələlərinə həsr edin.

**QIZ** - Bu gün ulduzlar məclislərdə iştirakınızdan xəbər verir. Dəvətləri qəbul etməyə çalışın. Daxili duyğularınızı tənzimləmək üçün fiziki işlərdən uzaq olun. Səhhətinizə fikir verin.

**TƏRƏZİ** - Gərgin vaxt olsa da, "məsləhətli don gen olar" deyiblər, inandığınız insanların tövsiyələrinə riayət etməklə, sıxıntılarınızı dəf edə bilərsiniz. Başladığınız bütün işlərin məsuliyyətini anlamağa çalışın.

**ƏQRƏB** - Həftənin bu enerjili günündə yalnız işgüzarlığınızı artırmalısınız. Yeni işlərə başlamaq haqqında sövdələşmələr aparın. Çünki bu addım böyük perspektivlərdən xəbər verir.

**OXATAN** - Proseslərin inkişafı mənfi istiqamətdə cərəyan edə bilər. Bu səbəbdən bəzi məsələlərdə ehtiyatlı olmalısınız. Günortadan sonra nüfuzlu və etibarlı adamlarla görüşməyiniz vacibdir.

**OĞLAQ** - İxtiyarınızda olan bu gözəl gün hamıdan çox sizin üçün uğurlu olmalıdır. Odur ki, vaxtınızı boşa verməyin. Müxtəlif ünvanlara baş çəkməklə maddi və mənəvi rahatlıq qazana bilərsiniz.

**SUTÖKƏN** - Taleyüklü məsələlərin həlli üçün perspektivli təqvimdir. Mövcud problemlərinizi aradan qaldırmaq üçün əhəmiyyət kəsb edən adamlarla görüşün. Məsuliyyətsizlik etməyin.

**BALIQLAR** - Sürprizlərlə dolu bir təqvim yaşayacaqsınız. Kiçicik gərginlikləri nəzərə almasaq, ətrafınızda cərəyan edən hər bir hadisə ürəyinizcə olacaq. Maraqlı görüşləriniz gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İtinə görə canından keçdi



Almaniyada yaşayan 49 yaşlı qadın itinə görə canından keçib. Ölkə mediasından yayılan məlumatlara görə, əri və iti ilə birlikdə Köln-Rathda göl kənarında gəzintiyə çıxan qadının iti suya düşüb. O, heyvanı xilas etmək üçün suya tullanıb və boğulub. Əri onu huşsuz vəziyyətdə sudan çıxarsa da, qadın həyatını itirib. Sudan çıxarılan itin səhhətinin normal olduğu deyilir.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300